09_27 IYUI-QARA.qxd 3/7/2024 10:23 PM Page 1

UNİKAL

№09 (2191) 8 mart 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# İrəvanın sülhü pozan taxribat diplomatiyası...



Səh. 9

## Səfər Mehdiyev biznesini böyüdür

*Ötən ilin may ayında işdən çıxarılan Gömrük Komitəsinin Maliyyə və Təchizat İdarəsinin rəisi, gömrük polkovniki Fuad Əlizadə şirkət rəhbəri təyin edilib. Bu barədə yayılan məlumata görə, polkovnik işdən çıxdıqdan bir ay sonra "APF Group" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) qanuni təmsilçisi və direktoru olub.*

*Nizamnamə kapitalı 50 manat olan şirkətlər qrupunun fəaliyyət sferası hazırda dörd əsas istiqaməti əhatə edir: inşaat, kənd təsərrüfatı , otelçilik və qida sektoru.*

Səh. 8

## "Müharibədə qələbəni əks etdirən sənədli filmlərə ehtiyac var"



*Milli Məclisin Mədəniyyət komitəsinin sədri, deputat Fazil Mustafa "Unikal"a müsahibə verib. O, Azərbaycan Kinematoqrafçılar İttifaqının kino sahəsinin inkişafına necə təsir edəcəyindən, Vətən müharibəsindəki qələbəni özündə əks etdirən filmlərin çəkilməməsindən, aktyorların maaşının az olmasından...*

Səh. 4

## "Şuşa, Laçın, Zəngilanda ilk dəfə bələdiyyə seçkiləri keçiriləcək



*"Bu prezident seçkilərində öncəki seçkilərlə müqayisədə xaricdə səs verən vətəndaşlarımızın sayı 2 dəfə çox oldu". "Unikal" xəbər verir ki, bu fikirləri bu gün Mərkəzi Seçki Komissiyasının iclasında MSK sədri Məzahir Pənahov bildirib. Məzahir Pənahov qeyd edib ki, bu, MSK və Xarici İşlər...*

Səh. 5

## Şahin Mustafayev və Mher Qriqoryan sərhəddə görüşdü



*Sərhəddə Azərbaycan-Ermənistan delimitasiya komissiyasının növbəti görüşü keçirilib. XİN-dən "Unikal"a verilən xəbərə görə, 7 mart tarixində Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev...*

Səh. 2

09_27 IYUl-QARA.qxd 3/7/2024 10:34 PM Page 2



# Şəbnəm Vəfanı hədələdi: "Özünü mələk kimi aparma"



***Müğənnilər Şəbnəm Tovuzlu ilə Vəfa Şərifova arasındakı qalmaqal daha da böyüyüb.***

Vəfa instaqramda Şəbnəmin ünvanına sərt sözlər yazaraq, onun mahnılarının hit olmadığı bildirib: "Məndən sənə bu qədər reklam bəsdir. Dəyərli, "Qoca"man sənətçimiz. İllərdir mahnın da tutmur, reklamın da yox idi. Ödənişli paylaşımlarından başqa. Sayəmdə yenə reklam olundun. Videoları montaj etdirəndə utanmadın, amma zil oxuyanda mənim pərt olacağımı düşündün? Bu, hansı sifətindir? Təklifim hələ də qüvvədədir. Gəl və dövranının getdiyini qəbullan".

Şəbnəmin qarşı tərəfə cavabı gecikməyib. O, Vəfanı yalan danışmaqda günahlandırıb: "Deyirsən ki, indi dövran mənimdir. Dövran heç vaxt sənin olmayıb. Sənə yazığım gəlir. Nə sənətin, nə danışıq qabiliyyətin var. Yaxşı ki, yanındakı səni adam edib ortaya çıxarıb. Sən kiməsə reklam vermirsən, sən reklamlı adamlardan yapışırsan. 2017-ci ildə ətəyimdən yapşdın, pilə-pillə, söz ata-ata gəldin. Mənə gələn toylardan imtina edəndə sənə deyilir. Getdiyin qiymət də bəllidir. Efirdə səni pərt etmədim. Həddini aşma, özünü mələk kimi aparma. Tülkülük sənin üzündən yağır. Sənin mahnıların tutmur. Şəbnəmin hitləri bir ömür ona bəsdir. Yum ağzını, mən çönməyim".

Qeyd edək ki, ifaçılar arasındakı qalmaqala səbəb Şəbnəmin Vəfa ilə efirə çıxmaq istəməməsi olub.

# "Şuşada böyük məmnuniyyətlə gedib yaşayacam" - Firəngiz Mütəllimova

***"Şuşada böyük məmnuniyyətlə həm gedib yaşayacam, həm yaradacam, həm də ürəyimdə bəzi arzularım var ki, onları həyata keçirəcəm".***

"Unikal" xəbər verir ki, bu fikirləri yaddaqalan obrazlarla tamaşaçıların dərin rəğbətini qazanan Xalq artisti Firəngiz Mütəllimova Böyük Qayıdış haqqında rəy və təəssüratlarını bölüşərkən deyib.

Qarabağa insanların böyük həvəslə qayıtmasından fərəh hissi keçirdiyini qeyd edən istedadlı sənətkar bu prosesdə gənclərin iştirakının vacib olduğunu vurğulayıb.

Qeyd edək ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, ilk növbədə, müasir infrastruktur formalaşdırılır, dayanıqlı məskunlaşma və iqtisadi reinteqrasiya üçün zəruri şərait yaradılır. Dövlət Komitəsi tərəfindən məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün məlumatlandırma, təbliğat-izahat və təşviqat işləri həyata keçirilir. Bu çərçivədə işğaldan azad edilmiş ərazilərdən olan ziyalıların, gənclərin və müxtəlif peşə sahiblərinin iştirakı ilə videoçarxlar hazırlanır.



# Nüşabə Rüfəti təhqir etdi: "Səviyyəsiz məxluq, ağzının qatığını"



***"Aə, düdük, sən öz aləmində, guya mənimlə məzələnib, məni ələ salırsan? Başın qaçıb sənin? Kimlərlə səhv saldın məni, ay nasos deyiləndə yada düşən hüştürüm şey?"***

Bu sözləri müğənni Nüşabə Musayeva meyxanaçı Rüfət Nasosnu haqqında paylaşdığı "post"a yazıb. "Instagram" hesabında meyxanaçının fotosunu paylaşan Musayeva onu təhqir edib: "Bir də hansısa verilişdə mənə söz deyib, atmaca atarsan, sonra da onu təkrar qələt edib, paylaşarsan. Ağzını cıraram, bildin? Məni kimsələrlə qarışdırma, tanı, özünə tay olanlarla məşğul ol, səviyyəsiz məxluq. Bu paylaşıma görə mənə heç kim ağız açmasın. Məndən üzr istəməyənə kimi bu paylaşım silinməyəcək. Bir ara vaxt tap, özünə hörmət elə. Sonra isə yerini və həddini bil! Mən heç kimə bənzəmərəm. Sən, yəqin ki, qadın görməmisən, ağzının qatığını dağıdanıng Dabanımda olan hörmət sənin başında yoxdur. Ağıllı ol!"(bakıvaxtı.az).

# Fatimə yenidən plastik əməliyyat etdirəcək



***Rəqqasə Fatimə Fətəliyeva yenidən plastik əməliyyat etdirəcək.***

Axşam.az xəbər verir ki, sənətçi bu haqda "Evdəkilərə salam" proqramında deyib. O bildirib ki, yaxın günlərdə bıçaq altına yatacaq: "Arıqlayanda üzün yanaqdan çənəyə doğru hissəsi aşağı düşür. Məndə də eyni haldır. Buxaq nahiyəm düşüb. Əslində, bu mənə yaraşır, amma onun sallandığını gördükcə əsəbiləşirəm. Çəkilişlərdə də bunu görürəm. Bu səbəbdən yaxın zamanda buxaqgötürmə əməliyyatı keçirəcəyəm".

Qeyd edək ki, Fatimə bundan əvvəl bir neçə dəfə liposaksiya, bədənşəkilləndirmə, üzgərdirmə əməliyyatları etdirib.

# Boşanmağa hazırlaşan müğənni övladlarının sənədlərini ala bilmir

***Boşanma ərəfəsində olan müğənni Leyla Rəhimova uşaqlarının sənədlərini ala bilmir.***

Axşam.az xəbər verir ki, sənətçi bu haqda "Rəngarəng səhər" proqramında deyib. O bildirib ki, hazırda ABŞ-də olan həyat yoldaşı övladlarının sənədlərini vermir: "Amerika səfirliyi ilə məsələni həll etmək istəyirik. Atasıdır, uşaqları istəməlidir. Amma problem yaradır".

Leyla əlavə edib ki, ayrıldığı həyat yoldaşı övladlarını ondan almaq istəyir. İfaçı məhkəməyə müraciət etdiyini, rəsmi boşanmanı hələ baş tutmadığını söyləyib.

Qeyd edək ki, Leyla Zaur Cəlil adlı şəxslə ailə qurduqdan sonra Amerikaya köçüb. Ötən il o, Bakıya qayıdıb. Zaur "Evliliyimizin yeddinci ilində ayrılmaq qərarına gəldik. Bu da son" deyə, paylaşım edib. Leyla bundan xəbərsiz olduğunu, ayrıldıqlarını sosial şəbəkədə oxuduğunu deyib.

Leyla tamaşaçılara "O səs Türkiyə" yarışmasından tanışdır. Leyla və Zaur 2016-cı ildə ailə qurub. Cütlüyün 3 övladı var.



09_27 IYUl-QARA.qxd 3/7/2024 10:59 PM Page 3





# Ermənistanın qaytardığı Ruslan hərbi xidmətinə davam edəcək? - Açıqlama

***Laçında əlverişsiz hava şəraitində azaraq Ermənistan tərəfinə keçən hərbçimiz Ruslan Pənahov martın 5-də Azərbaycana təhvil verilib.***

O, fevralın 28-də itkin düşmüşdü. Daha sonra Ermənistan hərbçiləri onu saxlayaraq həbs edib və haqqında cinayət işi açılıb. Ermənistan İstintaq Komitəsi azərbaycanlı hərbçi ilə bağlı cinayət təqibinə xitam verib.

Əslən Şəmkir rayonundan olan Ruslan Pənahov ötən ilin iyul ayında hərbi xidmətə yollanıb. Maraqlıdır o, yenidən müddətli həqiqi hərbi xidmətinə davam edəcək?

Qeyd edək ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunun 27-ci maddəsinə görə, düşmən tərəfinə könüllü keçmə hallarından başqa hərbçi əsirlikdə olarsa, həmin müddətə hərbi qulluqçular hərbi xidmət vəzifələrinin icrasında sayılırlar.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İctimaiyyətlə İş və Beynəlxalq Əlaqələr şöbəsinin rəisi Pərviz Sədrəddinov sözügedən situasiyadakı proseduru belə izah edib: "Hərbçinin əsirlikdə olduğu günlər onun həqiqi hərbi xidmət gündəliyi sayılır. Həmin günlər o, xidmət etmiş sayılır. Onun yenidən hərbi xidmətə qaytarılması məsələsi isə müvafiq dövlət qurumları və qoşun növlərinin səlahiyyətindədir. Onlar qərar verdikdən sonra addım atılacaq".

# Maliyyə Nazirliyi 86,9 mln. manat məbləğində artıq və əsassız ödənişlər aşkar edib

***2023-cü ildə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən dövlət büdcəsindən vəsait alan 126 təşkilatda nəzarət tədbirləri həyata keçirilib.***

Bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir. Məlumata görə, həmin dövrdə Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin fəaliyyətinin əsas hissəsi Azərbaycan Respublikası Baş Prokurorluğundan və hüquq mühafizə orqanlarından nəzarət tədbirlərinin aparılması barədə Maliyyə Nazirliyinə daxil olmuş xeyli sayda məktub və qərarların icrası ilə əlaqədar olub.

Belə ki, prokurorluq və hüquq mühafizə orqanlarının məktublarına və qərarlarına əsasən 2015-ci ildən 2023-cü ilə qədər olan dövrü əhatə etməklə 90 təşkilatda yoxlamalar aparılıb. Həmin təşkilatlarda qeyd edilən dövr ərzində 4636,3 mln. manat məbləğində vəsaitin təyinatına istifadəsi və gömrük ödənişləri şəklində dövlət büdcəsinə daxil olmuş 18 663,6 mln. manat məbləğində vəsaitlərin hesablanmasının düzgünlüyü yoxlanılıb. Qeyd edilən 90 təşkilatda yoxlamalarla 586,9 mln. manat məbləğində artıq və əsassız ödənişlər, 131,9 mln. manat məbləğində gömrük ödənişlərinin az hesablandığı və nəticədə bu məbləğdə vəsaitin dövlət büdcəsinə az ödənildiyi aşkar edilib. Aşkar edilmiş nöqsanlara hüquqi qiymət verilməsi üçün yoxlamaların nəticələrinə dair tərtib edilmiş aktlar əlavələri ilə birlikdə aidiyyəti üzrə prokurorluq və hüquq mühafizə orqanlarına göndərilib.

# Ötən il istehlakçılara 104 min manat qaytarılıb

***2023-cü ildə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tabeli inhisar subyektlərinin göstərdiyi xidmətlərlə əlaqədar baxılan 735 istehlakçı müraciətinin 220-ni təmin edib.***

"Unikal" bu barədə quruma istinadən xəbər verir. Məlumata görə, bu sahədə istehlakçılara qaytarılması, bərpa edilməsi və əsassız hesablandığı üçün silinməsi təmin edilən vəsaitin ümumi məbləği 104 631 manat təşkil edib.

"Rəqabət Məcəlləsində yer alan #təbiiinhisar subyektlərinin müştərilərin qanuni mənafelərinə mənfi təsir göstərə bilən davranışlarına dair tənzimləmə üsulları istehlakçı müraciətlərinin səmərəli həllinə fayda verəcək", - deyə məlumatda qeyd edilib.

# Səfər Mehdiyev biznesini böyüdür

## Keçmiş "gömrük şefi"nin yaxın adamının direktor olduğu şirkət əslində kimindir?

***Ötən ilin may ayında işdən çıxarılan Gömrük Komitəsinin Maliyyə və Təchizat İdarəsinin rəisi, gömrük polkovniki Fuad Əlizadə şirkət rəhbəri təyin edilib. Bu barədə yayılan məlumata görə, polkovnik işdən çıxdıqdan bir ay sonra "APF Group" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) qanuni təmsilçisi və direktoru olub.***

Nizamnamə kapitalı 50 manat olan şirkətlər qrupunun fəaliyyət sferası hazırda dörd əsas istiqaməti əhatə edir: inşaat, kənd təsərrüfatı , otelçilik və qida sektoru.

Şirkətin baş ofisi isə Naxçıvan şəhərində yerləşir.

"Qaynarinfo" isə belə bir məlumat əldə edib ki, "APF Group" MMC Dövlət Gömrük Komitəsinin sabiq sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevindir. Artıq şirkət bir sıra dövlət qurumları ilə əməkdaşlıq müqavilələri də bağlayıb.



Qeyd edək ki, Fuad Əlizadə vaxtilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin də rəisi olub.

Yeri gəlmişkən, yuxarıdakı xəbərə indiyədək nə S.Mehdiyev, nə də F.Əlizadə tərəfindən hər hansı açıqlama verilib.

Xatırladaq ki, ötən il yerli media sabiq "gömrük şefi" Səfər Mehdiyevin özünə və ailəsinə yaxın şirkətlərin bağlandığını yazmışdı.

Həmin vaxt bildirilirdi ki, artıq Səfər Mehdiyevin yaxınlarının adına olan şirkətlər də onların adından çıxarılaraq başqa şəxslərin adına keçirilib. Bəzi şirkətlərdə isə təhvil-təslim işləri aparılır."Belə şirkətlərdən biri Səfər Mehdiyev tərəfindən yaradılmış "Vadi-4" MMC-dir. Bu şirkət gömrükdə xüsusi imtiyazlara sahib olub. "Vadi-4" karqo daşımaçılıq şirkətidir. Bu karqo şirkəti məhsulları daha sürətlə gömrükdən keçirə bilib. "Vadi-4" çuvalları (bir çuvalda 70 bağlama olur) heç bir manеə olmadan daxili anbarlara çatdırır və bir gün sonra müştəriyə təhvil verirmiş.

MMC-nin qanuni təmsilçisi Cəfərov Nəsir Məhərrəm oğlu olub. Bu şəxs Səfər Mehdiyevin həmkəndlisi, Naxçıvanın Babək rayonu Nehrəm kəndinin sakini və generalın yaxın qohumudur.

Şirkət İsmayılov Məhərrəm Əbdülhüseyn oğlunun adına keçib" - deyə yayılan məlumatlarda vurğulanırdı.

Məsələ ilə bağlı "Vadi-4" MMC-nin sabiq təsisçisi, generalın yaxın qohumu Nəsir Cəfərov isə həmin vaxt KİV-ə açıqlama verərək bildirmişdi ki, rəhbəri olduğu şirkəti artıq təhvil verib: "Artıq "Vadi-4"-ün rəhbərliyindən getmişəm. Mən şirkətin fəaliyyətini dayandırdım və onun kimin adına keçməsindən xəbərsizəm. İndi şirkəti kimin idarə etdiyini bilmirəm. Mənlik bir şey yoxdur".

Sabiq "gömrük şefi" öz yaxınlarının adına yaratdığı iddia olunan və bağlandığı deyilən şirkətlər barədə xəbərləri də nə təsdiq, nə təkzib eləyib.

Qeyd edək ki, Səfər Mehdiyev vəzifəsindən azad edilməsinin ardınca başqa bir qalmaqallı xəbərlə də gündəmə gəlmişdi. Daha doğrusu, idarə etdiyi avtomobilin yol polisi tərəfindən saxlanılmasını əks etdirən görüntülər yayılmışdı. 90-AA-978 dövlət qeydiyyat nişanlı "Mercedes Gelandewagen" markalı avtomobilin saxlanılması zamanı sabiq gömrük rəhbəri yol polisləri ilə kobud davranmış və həmin avtomobilin "Vadi-4" MMC adlı şirkətin adına qeydiyyatda olduğu məlum olmuşdu.

Xatırladaq ki, hazırda 51 yaşında olan S.Mehdiyev 2004-dən 2006-cı ilin fevral ayına qədər Dövlət Gömrük Komitəsi sədrinin müavini, 2006-cı ilin fevral ayından etibarən isə sədrin birinci müavini postunu tutub. 2018-ci ilin aprelində adıçəkilən komitənin sədri vəzifəsinə təyinat alıb.

2020-ci ildə gömrük xidməti general-polkovniki ali xüsusi rütbəsi verilən Mehdiyev bundan 2 il sonra Dövlət Gömrük Komitəsinin sədri vəzifəsindən uzaqlaşdırılıb. Həmin vaxtdan işsizdir.

Onu da deyək ki, komitə sədri vəzifəsinə gətirilərkən Səfər müəllimdən gözləntilər böyük idi. Mehdiyevin məsul olduğu sahədə ciddi islahatlar aparacağına, şəffaflığa nail olacağına ümidlər vardı. Lakin bunun tam əksi baş verdi, gömrükdə rüşvət və korrupsiya səbəbindən həbslər adi hala çevrildi. Hətta Səfər müəllimin postunu itirməsindən cəmi bir gün əvvəl onun rəhbəri olduğu komitədəki son həbslərlə bağlı rəsmi məlumat yayılmışdı. Məlumatdan belə aydın olurdu ki, qandallanmış vəzifəli şəxslərin bəziləri hətta hərbi qulluqçulara paylanılması nəzərdə tutulan siqaret məhsullarını Müdafiə Nazirliyinin aidiyyəti struktur bölmələrinə deyil, qanunla müəyyənləşdirilmiş prosedur qaydalarını pozmaqla şəxsi münasibətdə olduğu şəxslərə verərək mənfəət əldə etməkdən belə çəkinməyiblər. Elə bu və bənzər səbəblərdəndir ki, sabiq "gömrük şefi"nin sözügedən vəzifədə uzun müddət qala biləcəyinə dair ehtimallar doğrulmadı...

***Sənan Mirzə***

09_27 IYUI-QARA.qxd 3/7/2024 10:45 PM Page 4



# İrəvanın sülhü pozan təxribat diplomatiyası...

## Ermənistan rəhbərliyi həm Azərbaycanla sülh prosesini yekunlaşdırmaqdan yayınır, həm də Qərbdəki havadarlarının fitvası ilə ənənəvi sahibindən qurtulmaq üçün yeni yollar axtarır

***Bakı və İrəvanın iki mühüm məsələyə yanaşması fərqlidir. Bu barədə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Antalya Diplomatik Forumu çərçivəsində ”Anadolu” xəbər agentliyinə müsahibəsində deyib. Mirzoyanın sözlərinə görə, tərəflər arasında müəyyən problemlər var ki, onların bir qismi razılaşdırılıb: ”Tərəflərin iki mühüm məsələyə yanaşması fərqlidir. Problemlərdən birincisi iki ölkənin sərhədlərinin müəyyən edilməsi prinsipi, ikincisi isə regional əlaqələrin və nəqliyyat qovşaqlarının blokdan çıxarılmasıdır”.***

Nazir qeyd edib ki, 1991-ci il Alma-Ata bəyannaməsi sülh müqaviləsi layihəsinə daxil edilməlidir: ”Bu məsələ ilə bağlı Azərbaycandan müsbət cavab alınmayıb. Erməni tərəfi bölgədə bütün yollar və qovşaqlar boyunca nəqliyyat marşrutlarını açmağa hazırdır. Biz Ermənistan ərazisindən keçən nəqliyyat marşrutlarının, can və əmlakın təhlükəsizliyini təmin etməli olan üçüncü dövlətlərin bu işə qarışmasının əleyhinəyik. Regiondakı nəqliyyat marşrutları təsdiq olunan ölkənin suverenliyi və yurisdiksiyası altında olmalıdır”.

Ararat Mirzoyan qeyd edib ki, eyni qarşılıqlılıq və bərabərlik prinsipi Azərbaycandan keçən nəqliyyat marşrutlarına da şamil edilməlidir və oradan keçən yollarla bağlı eyni səlahiyyətlər Bakıya məxsus olmalıdır.

Qeyd edək ki, Azərbaycan XİN erməni nazirin bu barədə açıqlamasına cavab verib.

Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın “Anadolu” agentliyində dərc edilmiş müsahibəsinə şərhində deyib ki, Mirzoyanın beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi güdən bu kimi açıqlamaları reallıqları əks etdirmir:

”Belə ki, suverenlik və ərazi bütövlüyünün tanınmasına, Azərbaycan-Ermənistan arasında sərhədlərin delimitasiyası məsələsində 1991-ci il Alma-Ata bəyannaməsinə, bölgədə nəqliyyat və iqtisadi əlaqələrin qurulması üçün ölkələrin suverenliyi, yurisdiksiyası və bərabərliyi prinsiplərinə hörmətlə yanaşılmasının əhəmiyyətinə vurğu edən xarici işlər nazirinin təmsil etdiyi Ermənistanın bu prinsipləri 30 ildən artıq müddətdə pozmasını unutdurmağa çalışması təəssüf doğurur. Bununla yanaşı, 44 günlük Vətən müharibəsindən sonra Ermənistanın üçtərəfli bəyanatın müddəalarını kobud şəkildə pozaraq, Azərbaycan ərazilərindən işğalçı qüvvələri çıxarmaması, ərazilərimizə silah-sursat, hərbi texnika və minaları ötürməkdə davam etməsi və digər kobud pozuntu və təxribatlar törətməsi, eləcə də qondarma rejimi təbliğ edən açıqlamaları barədə danılmaz faktlar Ermənistan tərəfinin əsl niyyətindən xəbər verir. Ermənistanın ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı hal-hazırda da davam etdirdiyi iddialar xarici işlər naziri tərəfindən səslənən fikirlərlə tərs mütənasibdir. Ermənistan tərəfinin daim istinad etdiyi Alma-Ata bəyannaməsinə qoşulan zaman verdikləri qeyd-şərtləri, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa qarşı çıxan qüvvədə olan qanunvericilik aktlarının mövcudluğu hər kəsə məlumdur. Ermənistan tərəfinin əldə olunmuş razılıqlara və öhdəliklərinə zidd olaraq son üç il ərzində müxtəlif bəhanələrlə kommunikasiya xəttlərinin açılmasına maneə törətməsi, məsələyə dair razılığın əldə olunması məqsədilə heç bir praktiki həll variantları təklif etməməsi, yalnız bir sıra populist çıxışlar etməsi bölgədə əməkdaşlığa heç bir halda töhfə verməyən amillərdəndir. Ermənistan tərəfi bu kimi təxribatlar və Azərbaycana qarşı siyasi manipulyasiya dolu fikirlər əvəzinə, sözdə deyil, əməldə beynəlxalq öhdəliklərə riayət etməli və sülh prosesinə töhfə verməlidir”.



Əslində, Ermənistan rəhbərliyinin nala-mıxa vurma siyasətinin arxasında başqa məqsədlər də dayanır. Məlum olduğu kimi, Ermənistan rus sərhədçilərin “Zvartnots” hava limanından çıxarılması təşəbbüsü ilə bağlı Rusiya tərəfinə məlumat verib. Ararat Mirzoyan bu barədə bildirib ki, əvvəllər rus sərhədçilərinin bir sıra məntəqələrdə, o cümlədən “Zvartnots” hava limanında iştirakı yeni müstəqillik qazanmış Ermənistan dövlətçiliyinə dəstək kimi düşünülürdü. Artıq Ermənistanın öz institusional imkanları olduqda, Ermənistan bu funksiyanı öz orqanları vasitəsilə tam şəkildə həyata keçirəcək. “İndi isə biz hesab edirik ki, Ermənistan institusional olaraq “Zvartnots” hava limanında sərhəd mühafizə xidmətini təkbaşına həyata keçirə bilir və bu barədə Rusiya tərəfini xəbərdar etmişik. Güman edirəm ki, bu, onlara kifayət edəcək və məsələ həllini tapacaq”, - nazir qeyd edib. Mirzoyan həmçinin bildirib: ”Əlbəttə, biz Rusiya tərəfinə minnətdarıq. Amma bizim artıq ”Zvartnots” hava limanında sərhəd mühafizə xidmətində Rusiya tərəfinin dəstəyinə ehtiyacımız yoxdur”.

“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu hesab edir ki, Ermənistan hökuməti Rusiyanın təsirindən qurtulmanın planını sürətlə həyata keçirməyə başlayıb. Onun fikrincə, böyük ehtimalla bu planın hazırlanmasında Brüssel, Paris və Vaşinqton iştirak edib. Bu üçlük Ermənistanı Rusiyadan qoparmağa çalışır: “Plana görə, ilk növbədə Rusiya sərhədçilərinin İrəvandakı “Zvartnots” hava limanını tərk etməsi tələb edilməlidir. İrəvan müvafiq məktubu artıq Moskvaya göndərib. İkinci addım kimi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) fəaliyyətini donduran Ermənistan qurumu tərk edəcək. Üçüncü addım kimi Ermənistanın Gürcüstan, Ukrayna və Moldova kimi Avropa İttifaqına üzvlük statusunun verilməsiylə bağlı Brüsselə müraciət ediləcək. Kreml bu plana qarşı öz planını ya hazırlayıb, ya da bitirmək mərhələsindədir. Misal üçün Kreml Ermənistan hökumətinin “Rusiya sərhədçiləri “Zvartnots” hava limanını tərk etsin” məktubuna hansısa formada cavab verməlidir. Kreml Rusiya sərhədçilərini hava limanından çıxarmaq üçün Ermənistanın keçmiş hakimiyyəti ilə 1992-ci ildə imzaladığı sazişə istinad edəcək. Həmin sazişə görə, Rusiya Ermənistanın Türkiyə ilə 345 kilometr, İranla 45 kilometr uzunluğundakı sərhəddini qoruyur. Eyni sazişə görə, Rusiya sərhədçiləri Ermənistan sərhədçiləri ilə birgə “Zvartnos” hava limanında da qulluq edirlər. Baş nazir Nikol Paşinyan 2018-ci ildə verdiyi açıqlamada bildirmişdi ki, Ermənistan Türkiyə sərhəddinin qorunması məsələsində Rusiya sərhədçilərinin xidmətindən imtina etməyəcək. Paşinyan bunun səbəbini də açıq etiraf etmişdi: “Türkiyə ilə sərhəd uzun olduğuna görə, sərhədə təkbaşına nəzarət Ermənistana böyük yük olar”. Ermənistan rəsmiləri Rusiya sərhədçilərinin Türkiyə və İranla sərhəddi tərk etməsi barədə indi də açıqlama vermirlər. Onlar rusiyalı sərhədçilərin yalnız hava limanını tərk etməsini istəyirlər. Kreml bunun yarımçıq qərar olmasına işarə edəcək. İrəvan Rusiya sərhədçilərinin Ermənistandan tam çıxarılmasını tələb etməyərək yalnız hava limanını tərk etməsini istəyirsə, Kreml məsələyə müsbət yanaşmaya da bilər. Çünki 1992-ci il sazişi Rusiya sərhədçilərinin Ermənistanda xidmət edəcəyi məntəqələrin tamamını müəyyənləşdirib”.

Müsahibimiz sonda onu da qeyd edib ki, Ermənistan KTMT-ni tərk etməyə hazırlaşarkən boşluğu Avropa İttifaqı hesabına dolduracağına ümid edir: “Buna sübut kimi Ermənistanın müdafiə naziri Suren Papikyanın Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borelə ünvanladığı məktubu göstərmək olar. Papikyan məktubda Avropa Sülh Fondu vasitəsilə “logistika və hərbi tibb sahəsində” Brüsseldən yardım istəyib. Avropa Sülh Fondu hazırda Ukraynaya yardım edir və Kiyevə göndərilən yardımın həcmindən məmnun deyil. Bu baxımdan Avropa Sülh Fondunun daha uzaq Ermənistana necə yardım edəcəyi və bu hərbi yardımla bağlı Avropa İttifaqının bütün üzvləri arasında konsensus əldə edəcəyi sual altındadır”.

***M.İbrahimli***



# Ceyhun Bayramov Türkiyə XİN rəhbərinin müavini ilə görüşdü

***Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Türkiyə xarici işlər nazirinin müavini Yasin Ekrem Serim ilə görüşüb.***

“Unikal” xəbər verir ki, görüşdə iki ölkə arasında ikitərəfli, regional və çoxtərəfli əməkdaşlıq gündəliyinin perspektivləri, bölgədəki cari vəziyyət, Azərbaycan-Ermənistan sülh prosesi ətrafında fikir mübadiləsi aparılıb.

İki ölkə arasında bütün səviyyələrdə strateji müttəfiqlik münasibətlərinin daha da genişləndirilməsi istiqamətində səylərdən məmnunluq ifadə olunub. Azərbaycan-Türkiyə strateji müttəfiqlik gündəliyinin siyasi, iqtisadi, ticarət, hərbi, müdafiə sənayesi, enerji təhlükəsizliyi, investisiyalar, nəqliyyat və kommunikasiya, humanitar, təhsil, mədəniyyət və digər sahələr üzrə daha da genişləndirilməsinin vacibliyi qeyd olunub.

Nazir Antalya Diplomatiya Forumunun yüksək səviyyədə təşkili ilə bağlı təəssüratlarını bölüşüb, qardaş Türkiyənin diplomatik uğurları və diplomatik təmsilçiliklərinin sayına görə dünyada 3-cü yerə yüksəlməsi ilə fəxr etdiyini bildirib. Azərbaycan-Türkiyə Universitetinin yaradılması istiqamətində qərarın iki ölkə arasında təhsil sahəsində əməkdaşlığı daha da dərinləşdirəcəyi diqqətə çatdırıb.

Habelə, beynəlxalq və regional təhdidlər, miqrasiya problemi və digər istiqamətlərdə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı tərəfdaşlığın nümunəvi xarakter daşıdığı diqqətə çatdırılıb.

Azərbaycanın əsas xarici siyasət prioritetlərindən olan Türk Dövlətləri Təşkilatı çərçivəsində birgə tədbirlərin intensivliyinin artırılmasının, yeni çoxtərəfli təşəbbüslərin irəli sürülməsinin əhəmiyyəti qeyd olunub.

C.Bayramov qarşı tərəfi Azərbaycanla Ermənistan arasında sülh prosesi istiqamətində atılan son addımlar barədə məlumatlandırıb.

Nazir bölgədə sülh və sabitliyin bərqərar olması üçün Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddialardan əl çəkməsinin vacibliyini vurğulayıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

09_27 IYUl-QARA.qxd 3/7/2024 10:48 PM Page 5



# İlham Əliyev bir qrup qadını təltif etdi - Siyahı



***Prezident İlham Əliyev Azərbaycan qadınlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif ediliblər:

Atamoğlanova Natəvan Dəmirçi qızı
Behbudova Gülşən Behbud qızı
Əhmədova Kəhlik Talış qızı
Əliyeva Gültəkin Budaq qızı
Haqverdiyeva Sevda Haqverdi qızı
Həsənova İlhamə Hüseyn qızı
Hüseynova Mariya Pavlovna
Hüseynova Reyhan Kamranovna
Hüseynova Zərifə Bəşir qızı
Mehrəliyeva Sevil Əli qızı
Məsimova Taliyə Fəxrəddin qızı
Ramazanova Bədyalcamal Süleyman qızı.

# Zelenski İlham Əliyevə təbrik məktubu göndərdi

***Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.***

"Unikal" xəbər verir ki, məktubda deyilir: "Zati-aliləri. Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin. Azərbaycan xalqının təhlükəsizliyinin, iqtisadi inkişafının və əmin-amanlığının təmin olunmasında Sizə yeni böyük nailiyyətlər arzu edirəm.

Əminəm ki, yenidən Prezident seçilməyiniz ikitərəfli əlaqələrimizin daha da möhkəmlənməsinə töhfə verəcək və Ukrayna-Azərbaycan əməkdaşlığını yeni dinamik səviyyəyə çıxaracaq. Beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində



iki dövlətin müstəqilliyi və ərazi bütövlüyünə Ukraynanın və Azərbaycanın qarşılıqlı dəstəyi olduqca vacibdir. Bu gün Ukrayna xalqı Rusiyaya qarşı mübarizədə öz azadlığını müdafiə edərkən Azərbaycan Respublikasının həmrəyliyi xüsusi əhəmiyyət kəsb edir. Biz humanitar yardıma, Rusiya ilə müharibədən zərər çəkmiş şəhərlərin infrastrukturunun yenidən qurulması, azad edilmiş Ukrayna ərazilərinin minalardan təmizlənməsi prosesində iştiraka görə minnətdarıq. Mən Ukrayna-Azərbaycan əməkdaşlığına mühüm dinamika verən şəxsi konstruktiv və səmimi dialoqumuzu yüksək qiymətləndirirəm. Əminəm ki, hörmət və etimada əsaslanan strateji tərəfdaşlıq bundan sonra da möhkəmlənəcəkdir. Mən Azərbaycanın Ukraynanın sülh formulunun implementasiyasına cəlb olunmasına və İsveçrədə keçiriləcək ilk Sülh Sammitində iştirakınıza ümid edirəm.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, enerji və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzu edirəm".

# Prezidentin Təhlükəsizlik Xidməti ilə bağlı fərman verildi

***"Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi emblemi haqqında Əsasnamə" təsdiq edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev fərman imzalayıb.

Fərmana əsasən, "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi embleminin təsviri" təsdiqlənib.

# Ağdam, Füzuli və Xocavənddə Prezidentin xüsusi nümayəndəsi təyin edildi

***Prezident İlham Əliyev Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, Emin Zamin oğlu Hüseynov Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin olunub.

# Əli Əsədov Dünya Bankının vitse-prezidenti ilə görüşdü

***Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 7-də Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Antonella Bassaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzunmüddətli səmərəli tərəfdaşlığın mövcud olduğu bildirilib. Ötən müddət ərzində müxtəlif sahələri əhatə edən birgə layihələrin uğurla həyata keçirilməsindən məmnunluq ifadə olunub.

Baş nazir Azərbaycanda dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyatın təmin edilməsi, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, qeyri-neft iqtisadiyyatının inkişaf etdirilməsi, məşğulluğun artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib.



Eyni zamanda, Azərbaycanın yaşıl enerjiyə keçid strategiyası, həyata keçirilən enerji səmərəliliyi və bərpaolunan enerji layihələri, ölkəmizin iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə verdiyi töhfəsi haqqında söhbət açılıb.

Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında bir çox istiqamətlərdə tərəfdaşlığın perspektivləri, əməkdaşlıq gündəliyində duran prioritet layihələrin icrası, Dünya Bankının yeni Ölkə Tərəfdaşlıq Çərçivəsinin hazırlanması, habelə cari ildə ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# 8 martla əlaqədar məktəblərdən şikayət daxil olmayıb

***Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin 146-2 çağrı mərkəzinə, eləcə də agentliyin sosial şəbəkə hesablarına 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə neqativ məzmunda, şikayət xarakterli müraciət daxil olmayıb.***

Bu barədə "Unikal"a Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən bildirilib.

Qeyd olunub ki, agentlik ümumi təhsil müəssisələrində monitorinqlərini davam etdirir:

"Hər hansı neqativ, xoşagəlməz hal baş aşkarlanarsa bununla bağlı ciddi və lazımi tədbirlər də görüləcək".

# Şahin Mustafayev və Mher Qriqoryan sərhəddə görüşdü

***Sərhəddə Azərbaycan-Ermənistan delimitasiya komissiyasının növbəti görüşü keçirilib.***

XİN-dən "Unikal"a verilən xəbərə görə, 7 mart tarixində Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikası Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi



məsələləri üzrə Komissiyanın yeddinci görüşü keçirilib.

Tərəflər delimitasiya məsələləri üzrə fikir mübadiləsi aparıb və Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılmasına başlayıb, habelə delimitasiya işlərinin görülməsinin qaydası üzrə müvafiq təlimatların layihələrini müzakirə ediblər.

Tərəflər Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılmasını ən qısa zamanda başa çatdırmaq barədə sövdələşiblər.

Tərəflər, həmçinin komissiyaların növbəti görüşünün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

09_27 IYUl-QARA.qxd 3/7/2024 10:48 PM Page 6



# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin ikinci iclası keçirildi

***Martın 7-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin ikinci iclası olub.***




"Unikal" xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Prezident İlham Əliyevin tapşırıqlarına müvafiq olaraq, ilk iclasdan ötən müddət ərzində COP29-a hazırlıq çərçivəsində görülmüş işləri qeyd etdi. Samir Nuriyev dövlətimizin başçısının Sərəncamı ilə Təşkilat Komitəsinin tərkibinin daha da genişləndirildiyini, Milli Məclisin deputatlarının və vətəndaş cəmiyyəti nümayəndələrinin təmsilçiliyi ilə inklüzivliyin təmin olunduğunu diqqətə çatdırdı.

Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasındakı çıxışında və "Euronews" televiziyasına müsahibəsində COP29 Sədrliyinin gündəliyinin əsas istiqamətlərini və çərçivəsini müəyyən etdiyini bildirdi. Samir Nuriyev bu tezislərdə əks olunduğu kimi, xüsusilə neft və təbii qaz ehtiyatları ilə zəngin olan ölkələrə münasibətdə ədalətli yanaşmanın və bu dövlətlərin fəaliyyətlərinin onların ətraf mühit məsələlərinə verdiyi töhfə müqabilində qiymətləndirilməsinin vacibliyini vurğuladı. Təşkilat Komitəsinin sədri bu günlərdə Azərbaycanın 2020-ci il ilə müqayisədə 2030-cu ilədək metan emissiyalarının həcminin 30 faiz azaldılması hədəfini ehtiva edən "Qlobal Metan Vədi"nə qoşulduğunu bildirdi.

Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı Tədbirlər Planının artıq təsdiqləndiyini, COP29-un keçirilməsi ilə bağlı Tədbirlər Planının hazırlandığını diqqətə çatdıran Təşkilat Komitəsinin sədri hər iki Tədbirlər Planı arasında uzlaşmanın təmin edilməsinin önəmini vurğuladı.

Samir Nuriyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi ilə aparılan işlərə toxunaraq, ölkəmizin hazırlıq səviyyəsinin BMT tərəfindən müsbət qiymətləndirildiyini qeyd etdi.

Təşkilat Komitəsinin sədri COP29-da Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu sədrlik təcrübəsini və digər beynəlxalq təşkilatlarda fəal təmsil olunmasını nəzərə alaraq, ölkəmizin qlobal Cənub və qlobal Şimal arasında körpü rolunu oynamağa qadir olduğunu və COP29-da qlobal həmrəyliyə və konsensusa nail olunması istiqamətində səylər göstərəcəyini bildirdi.

Samir Nuriyev, həmçinin Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Azərbaycan və Braziliya arasında COP-la bağlı "Üçlük" mexanizminin yaradılmasının təqdirəlayiq addım olduğunu bildirdi.

Daha sonra ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev çıxış edərək, ölkəmizin COP29-a sədrliyindən irəli gələn məsələlərin müzakirəsi məqsədilə Türkiyə, Almaniya, BƏƏ və Keniyaya səfərləri, xarici ölkələrin və beynəlxalq təşkilatların iqlim məsələlərinə məsul rəsmi şəxsləri ilə keçirdiyi görüşlər barədə məlumat verdi. Muxtar Babayev bu mötəbər tədbirə hazırlıq prosesi çərçivəsində daha çox səfər və görüşün təşkil olunacağını qeyd edərək, növbəti səfərin Çinə olacağını diqqətə çatdırdı.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev COP29-a hazırlıq prosesində nəqliyyat məsələlərinin həlli istiqamətində atılan addımlar barədə məlumat verdi.

Xarici işlər nazirinin müavini, COP29-un Baş danışıqçısı Yalçın Rəfiyev Azərbaycanın COP29 prioritetləri və təşəbbüsləri, müxtəlif tərəf müqabilləri ilə təmaslar barədə danışdı.

COP29 Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri Nərmin Carçalova təşkilati-logistika məsələləri və hazırlıq işləri barədə məlumat verdi.

Milli Məclisin deputatı Nigar Arpadarai İqlim dəyişikliyi üzrə yüksək səviyyəli çempion kimi öz fəaliyyəti barədə danışdı.

Deputat Fatma Yıldırım parlament diplomatiyası və iqlim dəyişiklikləri, həmçinin Azərbaycan Respublikası Milli Məclisinin COP29-la bağlı fəaliyyəti barədə məlumat verdi.

Gənc İqlim çempionu Leyla Həsənova bu statusda keçirdiyi görüşlər və apardığı fəaliyyət barədə məlumat verdi.

Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva və "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru, "Environmental Protection First" Koalisiyasının həmtəsisçisi Pərvanə Vəliyeva COP29-da vətəndaş cəmiyyətinin rolu barədə danışaraq, vətəndaş cəmiyyəti nümayəndələrinin də Təşkilat Komitəsinə daxil edilməsinin yüksək qiymətləndirildiyini, milli və beynəlxalq QHT-lər, özəl və dövlət sektorlarının nümayəndələrinin birgə əməkdaşlığının təqdirəlayiq olduğunu bildirdilər.

İclasın sonunda COP29-un təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verildi.

# Ramazan ayının başlaması ilə bağlı fətva verildi

***Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası Azərbaycanda Ramazan ayının başlaması ilə bağlı fətva verib.***

"Unikal"ın məlumatına görə, fətvada mübarək Ramazan ayının başlanması münasibətilə dünya və ölkə müsəlmanları təbrik edilib.



Bildirilib ki, Azərbaycanda Ramazan ayı martın 11-də başlanır, martın 28-i və 30-u, aprelin 1-i və 5-i Qədr gecələridir. Fətvada vurğulanıb ki, on bir ayın sultanı olan Ramazanın gəlişi Azərbaycan xalqı üçün bu il də çox əlamətdardır: "Çünki bu mübarək ayı Vətən müharibəsində əldə etdiyimiz şanlı Zəfər sevinci ilə yanaşı, separatçı rejimin süqutu - müqəddəs bayrağımızın Xankəndidə dalğalanması qüruru ilə qarşılayırıq. Müstəqillik tariximizdə ilk dəfə ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərində qalib Xalq - qalib Lider seçiminin qələbə sevinci bu Ramazanda xeyir-dualarla yad ediləcək".

Qeyd olunub ki, islamın təməl prinsiplərindən olan oruc ibadəti insanı təkəbbür və şöhrətpərəstlikdən uzaqlaşdıran, insanlar arasında birliyi, qardaşlığı, haqqı və ədaləti bərqərar edən, bəşər övladını iman və təqvaya yaxınlaşdıran ibadətdir: "Oruc ibadəti insanın haramlardan qorunması üçün bir imtahandır, Allahın insana bəxş etdiyi iradəni gücləndirən, səbri və dəyanəti bütünləşdirən, arzu, ehtiras və nəfsin önünə qalxan kimi sədd çəkən vasitədir. Ramazanda Quran oxumaq, elm-irfan və ibadətlə məşğul olmaq, iftar süfrələri açmaq, xeyriyyəçilik etmək, ehtiyaclı şəxslərə, kimsəsizlərə, uşaq evlərinə, ahıl və qocalara köməklik göstərmək, valideynlərin qayğısına qalmaq, dünyasını dəyişənlərin ruhlarını yad etmək İlahi məqamda bəyənilən əməllərdəndir və savabdır".

Fətvanın sonunda din xadimlərinə iftardan öncə məclislərdə ehsan verilməsinin qəti qadağan olduğu xatırladılıb: "Çünki Allahın hökmü, peyğəmbərin əmri ilə ehsan adı ilə iftardan əvvəl süfrə açılması şəri baxımdan haram əməldir".



## "Deyirlər ki, seçkilər yüksək səviyyədə keçirilib" - Məzahir Pənahov

***"Prezident seçkilərindən sonra müşahidəçi kimi bizimlə əməkdaşlıq edən qurumlardan məktublar daxil olur".***

"Unikal" xəbər verir ki, bu fikirləri Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın iclasında bildirib.

"Onlar qeyd edirlər ki, seçkilər yüksək səviyyədə keçirilib", - deyə M. Pənahov əlavə edib.

## Maliyyə Nazirliyinin bəzi vəzifələri ləğv edildi

***Prezident İlham Əliyev "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" qanunların icrası ilə əlaqədar "Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 9 fevral 2009-cu il tarixli fərmanında dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, dövlət başçısı bununla bağlı yeni fərman imzalayıb. Fərmana əsasən, nazirliyin səlahiyyətləri daxilində qanunla nəzərdə tutulmuş qaydada və hallarda strukturuna daxil olan müvafiq qurumlar vasitəsilə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı nəzarət orqanının funksiyalarını həyata keçirməsi vəzifəsi ləğv edilib.

## Terrorçuluğu maliyyələşdirən azərbaycanlı həbs edildi

***Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Azərbaycan Respublikasının vətəndaşı Abit Mərdanov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1-ci maddəsi ilə ittiham olunduğu cinayət əməllərinə görə həbs edilib.***

"Unikal"ın məlumatına görə, bu barədə Bakı şəhəri Səbail Rayon Məhkəməsi tərəfindən qərar qəbul edilib.

Belə ki, Abit Mərdanov terrorçuluğu maliyyələşdirmə cinayət əməllərini törətməkdə təqsirləndirilir.

***Azər İsrafilov***

## 13 din xadimi attestasiyadan keçə bilmədi

***Azərbaycanda 13 din xadimi attestasiyadan keçə bilməyib.***

"Unikal" xəbər verir ki, bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Bildirilib ki, həmin din xadimlərinin bilikləri tutduğu vəzifə üçün qənaətbəxş sayılmayıb.

09_27 IYUl-QARA.qxd 3/7/2024 10:48 PM Page 7



# Xankəndi, Ağdərə və Xocalıda xüsusi nümayəndə təyin edildi



***Elçin Mustafa oğlu Yusubov Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. E.Yusubov 1975-ci il 8 avqust tarixində anadan olub. 1996-cı ildə Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun İdarəetmənin təşkilatçısı ixtisası üzrə, 1998-ci ildə Azərbaycan Dövlət İqtisad İnstitutunu kredit iqtisadçı ixtisası üzrə bitirib.

Özəl sektorda, Azərbaycan Respublikası Ticarət Nazirliyində, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyində, Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyində, Azərbaycan Respublikası Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Əmlak Komitəsində, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "İçəri şəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində müxtəlif vəzifələrdə çalışmışdır.

Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Bakı şəhər Lokal Gəlirlər Departamentində baş direktorun müavini, baş direktorun 1-ci müavini, baş direktor, Bakı şəhər Lokal Gəlirlər İdarəsinin rəisi vəzifələrində çalışmışdır.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2020-ci il tarixli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib.

Azərbaycan Respublikası Prezidentinin 13 may 2020-ci il tarixli Sərəncamı ilə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisinin müavini vəzifəsinə təyin edilib.

# "Sədərək" gömrük postunun əməkdaşlarına cinayət işi açılıb



***Rüşvət müqabilində gömrük sərhəddindən malların keçirilməsinə şərait yaradan vəzifəli şəxslər cinayət məsuliyyətinə cəlb edilib.***

"Unikal" xəbər verir ki, "Sədərək" gömrük postundan müxtəlif adda dərman vasitələrinin Türkiyə Respublikasından ölkə ərazisinə nəzarətsiz keçirilməsi faktı ilə bağlı Muxtar Respublika Prokurorluğunda istintaq olunan cinayət işinin ibtidai istintaqı tamamlanıb.

İstintaqla Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin "Sədərək" gömrük postunun əməkdaşları Saday Paşayev və Nihad Məmmədovun rüşvət müqabilində qabaqcadan əlbir olduqları Seymur Ağayev, Yalçın Teymurov və Fərəc Fərəcovla birgə dövlət qeydiyyatı tələb olunmasına baxmayaraq, qanunla nəzərdə tutulmuş qaydada qeydiyyatdan keçirilməyən ümumilikdə 12 min manatdan artıq dəyəri olan 25 adda dərman vasitələrini müxtəlif vaxtlarda satış məqsədilə ölkə ərazisinə idxal etmələrinə əsaslı şübhələr müəyyən edilib.

İş üzrə Saday Paşayev və Nihad Məmmədov Cinayət Məcəlləsinin 200-1.2.1, 200-1.2.2, 200-1.2.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrar və külli miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsi), 311.3.1, 311.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrar rüşvət alma) maddələri ilə, Seymur Ağayev həmin Məcəllənin 200-1.2.1, 200-1.2.2, 200-1.2.3, 32.5, 311.3.1 və 32.5, 311.3.2-ci (rüşvət almada köməkçi) maddələri ilə, Yalçın Teymurov və Fərəc Fərəcov isə həmin Məcəllənin 200-1.2.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində müvafiq qətimkan tədbirləri seçilib.

Cinayət işi üzrə ittiham aktı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən təsdiq olunaraq baxılması üçün Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# "Müharibədə qələbəni əks etdirən sənədli filmlərə ehtiyac var"

## Fazil Mustafa: "Müharibə ilə əlaqələndirilə biləcək filmlərin çəkilməsi Azərbaycan əsgərinin, bir məcburi köçkünün taleyi, onun qayıdışı və başqa məsələləri nəzərdə tuta bilər"

***Milli Məclisin Mədəniyyət komitəsinin sədri, deputat Fazil Mustafa "Unikal"a müsahibə verib. O, Azərbaycan Kinematoqrafçılar İttifaqının kino sahəsinin inkişafına necə təsir edəcəyindən, Vətən müharibəsindəki qələbəni özündə əks etdirən filmlərin çəkilməməsindən, aktyorların maaşının az olmasından və başqa məsələlərdən danışıb.***



***-Fazil bəy, martın 5-də Azərbaycanın iki kino ittifaqı birləşib və yeni təşkilatın adı Azərbaycan Kinematoqrafçılar İttifaqı olub. Bu ittifaqa Xalq artisti Rasim Balayev rəhbərlik edəcək. O çıxışında qeyd edib ki, bu gün Azərbaycan kinosu reanimasiyadadır. Eyni zamanda, hazırda tənəzzül dövrünü yaşayan Azərbaycan kinosunun dirçələcəyinə inandığını söyləyib. Siz necə düşünürsüz, qarşıdakı illərdə kino sahəsində dirçəlişin şahidi olacağıq?***

-Birləşmə müsbət haldır. Xalq artisti Rasim Balayevin reanimasiya məsələsinə toxunması haqlıdır. Amma bu ittifaq vasitəsilə bütövlükdə kinonun tənəzzülünün qarşısını almaq mümkün olacaqmı? Birinci növbədə bu suala cavab verməliyik. İndiki şəraitdə görünür ki, ittifaqda hansısa prosesin getməsi kinonun inkişafına hələ də öz təsirini göstərə bilməyəcək. İttifaqın maddi və texniki imkanları o səviyyədə deyil. Eyni zamanda, insanların məsələyə baxışında, sənətə münasibətində dəyişikliklər hələ özünü göstərmir. Dövlətin də bu məsələdə müəyyən dərəcədə stimullaşdırıcı addımlarına ehtiyac var. Bu addımlar atılmayınca, kino sənətinin inkişafı ilə bağlı irəliləyişdən danışmaq tezdir. Ona görə müsbət haldır ki, iki kino ittifaqı birləşdi, artıq təşkilati mənada ikitirəlik bitdi. Amma intelektual, yaradıcılıq mənasında oyanışın başlamasını indiki şərtlərdə real hesab etmirəm. Kömək etmək lazımdır ki, kino sənətini inkişaf etdirək və ən azından tənəzzüldən çıxaraq.

***-Azərbaycan 4 ildir qələbə qazanıb. Lakin hələ də bu tarixi özündə əks etdirən filmlər görə bilmirik. Vətən müharibəsindəki qələbəni əks etdirən filmlər nə zaman çəkilə bilər?***

-Müharibədə qələbəni əks etdirən sənədli filmlərə ehtiyac var. Təəssüf ki, sənədli filmlər üzərində iş arzuolunan səviyyədə getmir. Müharibə ilə əlaqələndirilə biləcək filmlərin çəkilməsi Azərbaycan əsgərinin, bir məcburi köçkünün taleyi, onun qayıdışı və başqa məsələləri nəzərdə tuta bilər. Əslində kifayət qədər böyük mövzu var, sadəcə yaradıcı impuls lazımdır. Bu da çox aşağı səviyyədədir. Ona görə də bu müddət ərzində daha çox vaxt itirməklə məşğul olduq, sanballı sənət əsərləri ortaya qoymaq mümkün olmadı. Bunun sonradan peşmançılığını çəkəcəyik. İsti-isti bu məsələni həll etmək lazımdır. Şəhidlərin, yaşayan müharibə veteranlarının olması şəraitində daha optimaldır.

***-Aktyorların maaşının az olması da hər zaman səsləndirilən məsələdir...***

-Aktyorun maaşının artması məsələni həll etməyəcək. Aktyorlara daha çox nominasiyaların çoxalması lazımdır. Böyük məbləğdə nominasiyaların olması lazımdır ki, istedadlı insanların dəstəklənməsi mümkün olsun. Yoxsa, maaşla hansısa bir şəkildə problem həll edilməz. Maaş müəyyən təbəqə insanın sadəcə sosial problemini həll edə bilər. Burada yaradıcı insana verilən dəstəkdən söhbət gedir. Bu dəstək həm dövlətdən, həm də cəmiyyətdən gəlməlidir. Ayrı-ayrı müsabiqələr, nominasiyalar vacibdir. Buna da insanlar müəyyən dərəcədə dəstək verməlidir ki, sənət, mədəniyyət tənəzzülə uğramasın.

***-Bu günlərdə deputat həmkarınız çıxışı zamanı bildirib ki, Azərbaycan hərbi əməliyyatlar vasitəsilə işğalda olan 8 kəndi azad etməlidir. Hazırda hərbi əməliyyatlara zərurət varmı?***

-Bu, Azərbaycanın beynəlxalq hüquqdan irəli gələn haqqını göstərən amildir. Biz bunların hamısını dinc yolla, danışıqlarla həll etməyə çalışırıq. Bölgədə hansısa müharibə aurasının yaranmasında maraqlı deyilik. Amma qarşı tərəf hansısa şəkildə bunu nəzərə almaqdan imtina edərsə, onda Azərbaycan öz konstitusiyasında nəzərdə tutulan və beynəlxalq hüquqa istinad edərək müvafiq addımlar ata bilər. İndiki vəziyyətdə bizim qarşımızda hərbi yolla bu məsələni həll etmək gündəmdə deyil. Danışıqlar yolu ilə Azərbaycanın bu gün işğal altında olan digər ərazilərinin qaytarılması bizim üçün həyati əhəmiyyət daşıyır. Bunu həyata keçirəcəyik. Amma danışıqlar yolu ilə olmasına üstünlük veririk.

***-Siz həm də Əfv Komissiyasının üzvüsüz. Novruz bayramında və ya 10 mayda əfv olacağı gözlənilirmi?***

-Hələki əfvlə bağlı müzakirələr getmir. Ona görə də tarix demək çətindir. Bu, prezidentin iradəsinə aid olan məsələdir. Bununla bağlı müzakirələr başlamadığı üçün bir şey söyləmək çətindir.

***Anar Kəlbiyev***

09_27 IYUI-QARA.qxd 3/7/2024 10:49 PM Page 8



# Elman Rüstəmova 13 milyon manatlıq şok...

## Sabiq baş bankirin xaricdəki biznesi böhranda

***Azərbaycan Mərkəzi Bankının sabiq sədri Elman Rüstəmovun qızı Günel Rüstəmovanın direktoru olduğu "Gyunel Limited" şirkəti maliyyə hesabatını açıqlayıb.***

Böyük Britaniyanın paytaxtı Londonda fəaliyyət göstərən "Gyunel Limited"in sonuncu maliyyə hesabatında şirkətin 6 milyon 195 min 983 funt-sterlinq (13,3 milyon manat) zərər etdiyi göstərilir (yeniavaz.com).

Qeyd edək ki, 28 aprel 2005-ci ildə "Basement 32 Woodstock Grove, London, Uk W12 8LE" ünvanında qeydiyyatdan keçən "Gyunel Limited" növbəti maliyyə hesabatını 33 gündür təqdim edib.

Onu da bildirək ki, bu şirkətin 2007-2021-ci illərdə digər bir rəhbəri Günel Rüstəmovanın həyat yoldaşı Cümə Əhmədzadə olub.Elman Rüstəmovun 1981-ci il təvəllüdlü qızı Günel Rüstəmova orta təhsilini Bakıda, ali təhsilini isə Böyük Britaniyada alıb. O, London Kollecində modelyerlik üzrə təhsil alıb, daha sonra İngiltərədə nüfuzlu təhsil ocağı sayılan "Central Saint Martins"i incəsənət və moda sənayesi ixtisası üzrə bitirib. Günel Rüstəmova hazırda Londonda modelyer kimi fəaliyyət göstərir.



Yeri gəlmişkən, Mərkəzi Bankın sabiq sədrinin ikinci qızı Süsən Rüstəmova bir müddət öncə Londonda şirkət açıb. Bu barədə yayılan məlumatlardan belə aydınlaşırdı ki, London Modalar Kollecinin məzunu olan Süsən Rüstəmova "EV LDN LTD"ni İran əsilli Anita Nazənin Şahi ilə ortaqlıq əsasında bu ilin yanvarında təsis edib."Şirkət keçmiş baş bankirin qızına məxsus Belvedere Row Apartments 64, Fountain Park Way ünvanında qeydiyyatdan keçib. Elman Rüstəmov Londonun bahalı yaşayış kompleksində yerləşən mənzili qızına 2 il əvvəl 820 min funt-sterlinqə alıb" - məlumatlarda bildirilirdi.

Xatırladaq ki, 27 il Mərkəzi Banka - ölkənin baş bankına, eyni zamanda ümumilikdə bank sektoruna, pul-kredit siyasətinə düzən verən bir quruma rəhbərlik etmiş E.Rüstəmov hazırda "təsəlliverici" vəzifədədir, Baş nazirin müşavirlərindən biridir.

Elman müəllim baş bankir postunu itirdikdən sonra yerli media yazırdı ki, heç vaxt Nazirlər Kabinetinə, Baş nazirə tabe olmayan bir qurumun rəhbərliyindən baş nazirin müşaviri kimi texniki vəzifəyə göndərilməsi ilk baxışdan çox ciddi eniş kimi görünür. Lakin son illərdə vəzifədən alınan məmurların başına gələnlərin müqabilində Rüstəmovun vəzifədən sürüşdürülməsi, bir növ, əfvə düşmə hesab olunur. Çünki yüksək vəzifə tutaraq külli miqdarda var-dövlət toplayan sabiq məmurların bir çoxu korrupsiya ittihamı ilə həbsə atılır, yaxud iqtidar komandasından tamamilə uzaqlaşdırılaraq, vəzifədə olduğu müddətdə hakimiyyətin müxtəlif qollarına yerləşdirdiyi adamlar da işdən kənarlaşdırılır. Buna görə də sabiq baş bankirin Nazirlər Kabineti aparatında az qala texniki bir vəzifəyə təyin olunması onun üçün üstünlük kimi qiymətləndirilirdi.

"Halbuki E.Rüstəmovun Mərkəzi Bank rəhbəri kimi çox böyük səhvləri olub və bu səhvlər dövlətə on milyardlarla manata başa gəlib. Rüstəmovun ən böyük səhvi 2014-2015-ci illərdə səmərəsizliyini bilə-bilə manatın məzənnəsini saxlamaq üçün 3-4 ay ərzində Mərkəzi Bankın 12 milyard dollarlıq ehtiyatını göyə sovurmasıdır. Bu addım onun baş verən iqtisadi prosesləri vaxtında və düzgün qiymətləndirməməsinin göstəricisi idi. E.Rüstəmovun bu addımının səbəbləri uzun müddət müzakirə mövzusu olmaqla, hətta onun devalvasiyalardan öncə külli miqdarda (bəzi mənbələr hətta 700 milyon dollar kimi fantastik məbləğ göstərirdilər) məbləğində vəsaiti özünə yaxın banklar vasitəsilə xaricə çıxartdığına dair iddiaların yayılmasına gətirib çıxardı" - deyə yerli KİV yazırdı.

Onu da deyək ki, E.Rüstəmov Azərbaycanda məmur biznesi deyərkən göz önünə gələn ilk adlardan biridir. Uzun illərdir o, ölkədə və ondan kənarda qurulan böyük biznes imperiyasının sahibi kimi tanınır. Hazırda bu "imperiyanın" idarəçiliyində onun özü ilə yanaşı övladları - xaricdə şirkətlərə sahib olan qızları da müstəsna rol oynayır. Daha doğrusu, Elman müəllimin Azərbaycandan kənardakı biznesi Günel və Süsən Rüstəmovaların birbaşa nəzarətindədir.

Sabiq baş bankirin Azərbaycandakı biznesi isə yalnız bank sektoru ilə məhdudlaşmır. Onun "Səba" Şirkətlər Qrupuna və "Bakı Sığorta" şirkətlərinə nəzarət etdiyi bildirilir. Adıçəkilən şirkətlər qrupuna "Səba" ASC, "Biləsuvar Aqro", "Qarabağ Taxıl" şirkətləri, eləcə də "Gündəlik" ərzaq dükanları şəbəkəsi daxildir. Bütün bunlardan əlavə, Rüstəmov bir sıra məşhur avtomobil istehsalçılarının Azərbaycandakı distribütorlarının da sahibliyində iştirakçıdır. Bura ilk növbədə Yaponiyanın məşhur "Mitsubishi", "Subaru", "Toyota" avtomobilləri aiddir. Bu markalar satış sayına görə ölkənin avtoparkında birinci onluqda yer alır. Onların əsas müştəriləri yerli və xarici şirkətlər, səfirliklərdir.

Sabiq baş bankirin həm də tikinti, ictimai iaşə sahələrində, həmçinin Türkiyə və Gürcüstanın daşınmaz əmlak sektorunda da biznes fəaliyyətləri olduğu deyilir. Məşhur "Planet" şadlıq sarayının bütnüklə, onun yaxınlığında ucaldılan çoxmərtəbəli yaşayış binasının isə 50 faizinin E.Rüstəmova məxsus olduğu vurğulanır.

Sonda onu da deyək ki, sabiq baş bankir özünün və övladlarının biznesi, əmlakları barədə yerli mediada ortaya atılan iddialara, yayılan xəbərlərə indiyədək heç bir reaksiya verməyib.

***Sənan Mirzə***

# "Şuşa, Laçın, Zəngilanda ilk dəfə bələdiyyə seçkiləri keçiriləcək"



***"Bu prezident seçkilərində öncəki seçkilərlə müqayisədə xaricdə səs verən vətəndaşlarımızın sayı 2 dəfə çox oldu".***

"Unikal" xəbər verir ki, bu fikirləri bu gün Mərkəzi Seçki Komissiyasının iclasında MSK sədri Məzahir Pənahov bildirib.

Məzahir Pənahov qeyd edib ki, bu, MSK və Xarici İşlər Nazirliyinin birgə əməkdaşlığı nəticəsində mümkün olub: "Bu, bizim üçün tarixi seçki idi. Çünki birinci dəfə beynəlxalq səviyyədə ölkənin tanınan bütün ərazilərində keçirilirdi".

MSK sədri əlavə edib ki, qarşıdan gələn bələdiyyə seçkilərində Şuşa, Laçın, Zəngilanın Ağalı kəndi, Ağdərə və Füzulidə, azad edilmiş ərazilərdə ilk dəfə bələdiyyə seçkiləri keçiriləcək: "Həmin vaxta qədər də o yerlərə yenə insanlar köçürüləcək. Bizim üçün əsas məsələ seçki komissiyalarının bu prosesə hazır olmasıdır".

# Apreldə quru sərhədlər açıla bilər

***Xəbər verdiyimiz kimi, Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb.***

Nazirlər Kabineti bu barədə müvafiq qərar verib. Qərara əsasən koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 2 aprel saat 06:00-dək uzadılıb.

Bundan əvvəl bu müddət 2024-cü il 2 yanvar saat 06:00-dək olan dövrü əhatə edib. Karantin müddətinin uzadılması sərhədlərin bağlı qalması deməkdir.

Bəs apreldən quru sərhədlərin açılması ehtimalı varmı?

Mövzu ilə bağlı Bakıvaxtı.az-a danışan iqtisadçı millət vəkili Vüqar Bayramov bildirib ki, quru sərhədlərlə bağlı qərar Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən verilir.

Deputatın sözlərinə görə, quru sərhədlərin açılmasının, həm də iqtisadi tərəfləri var: "Bu, bir tərəfdən turizmin inkişafı, digər tərəfdən vətəndaşlarımızın xarici ölkələrə səfərlərinin asanlaşması, daha az xərclə səfər etməsi kontekstindən vacibdir. Artır yeni turizm mövsümü başlayır, ona görə quru sərhədlərin açılmasının Azərbaycan üçün iqtisadi dividentləri var".

Müsahibimiz qeyd edib ki, sərhədlərlə bağlı qərarın nə zaman veriləcəyi birbaşa qərargahın mövqeyindən asılı olacaq: "Bütün hallarda, belə bir addımın atılması ölkəyə gələn turistlərin sayının artmasına, xüsusən də sərhədyanı ölkələrdən daha çox turistin gəlməsinə səbəb olacaq. Təbii ki, quru sərhədlərindən istifadə etməklə vətəndaşlarımız qonşu ölkələrə gedə biləcək. Bu mənada, quru sərhədlərin açılması Azərbaycan üçün turizmin inkişafı, qonşu ölkələrlə iqtisadi, o cümlədən nəqliyyat əlaqələrinin genişləndirilməsi aspektindən vacibdir".

# Dələduzluqda ittiham olunan ictimai fəalın məhkəməsi başlayır



***Bakı Ağır Cinayətlər Məhkəməsində 178.3.2 (Dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə təqsirli bilinən Abbasov Rail Nurəddin oğlunun məhkəməsi başlayır.***

"Unikal"ın məlumatına görə, 18 mart tarixinə təyin olunan məhkəmə prosesinə hakim Mahirə Kərimova sədrlik edəcək. Cinayət işində Həziyev Əsgər Bayram oğlu zərərçəkmiş qismində tanınıb.

Xatırladaq ki, ictimai fəal Rail Abbasov ötən il sentyabr ayının 19-da Nəsimi rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb.

Rail Abbasov həbsdə olan ictimai fəal Bəxtiyar Hacıyevin yaxın dostu kimi tanınır.

***Azər İsrafilov***

09_27 IYUl-QARA.qxd 3/7/2024 10:53 PM Page 9



# Elektrik dolum məntəqələri üçün yerlər müəyyənləşdiriləcək

***Prezident İlham Əliyev elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi ilə bağlı Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncamla elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin və elektrik enerjisi doldurma məntəqələrinin əhatə dairəsinin genişləndirilməsi ilə bağlı göstərişlər verilib.

Həmçinin Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Energetika Nazirliyi, "Azərenerji" ASC və "Azərişıq" ASC-nin təklifləri əsasında elektrik enerjisi doldurma məntəqələrinin quraşdırılması üçün yerlərin bir ay müddətində müəyyən edilməsi qeyd edilib.

Bundan başqa enerji doldurma məntəqələrinin quraşdırılması, zəruri infrastrukturun yaradılması, habelə həmin məntəqələrin dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərişıq" və "Azərenerji" tərəfindən müvafiq tədbirlər görülməsi tapşırılıb.

Təkliflər əsasında cari ilin və növbəti ilin dövlət büdcəsindən müvafiq vəsaitin ayrılması üçün tədbirlərin görülməsi qeyd edilib.

# Qadınların ictimai-siyasi həyatda iştirakına münasibətiniz necədir? - Sorğu

***Sosial Tədqiqatlar Mərkəzi (STM) bütün tarixi dövrlərdə milli-mənəvi ideallara bağlılığı ilə fərqlənən Azərbaycan qadınlarının ictimai-siyasi, işgüzar həyatda iştirakına, dövlət idarəçiliyində təmsil olunmalarına münasibəti öyrənmək məqsədilə sorğular keçirib.***

STM-dən "Unikal"a bildirilib ki, bu xüsusda sorğuda iştirak edənlərə "Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında iştirakına münasibətiniz necədir?" sualı ünvanlanıb.

Azərbaycan qadınlarının cəmiyyətdə ictimai-siyasi, işgüzar həyatda iştirakçılığı ilə bağlı sorğu nəticələrinə əsasən, respondentlərin əksəriyyətinin və ya 89.3%-nin bu məsələyə münasibəti müsbət olub. Respondentlərin 10,2%-i qadınların ölkənin ictimai-siyasi həyatında iştirakına mənfi baxdığını bildirib. 0,5%-i bu barədə mövqeyini ifadə etməkdə çətinlik çəkib.

Nəticələrin respondentlərin sosial-demoqrafik göstəricilərə nəzərən təhlili müxtəlif qruplar üzrə qadınların ictimai-siyasi həyatda iştirakına müsbət mövqeləri müəyyən etməyə imkan verib. Kişilərin 86.0%-i əks cinsin nümayəndələrinin ictimai-siyasi həyatda iştirakı ilə bağlı müsbət mövqedə olarkən, qadınların 93.0%-i analoji mövqedən çıxış edib. Dövlət həyatının ictimai və siyasi sahəsində qadınların fəal roluna münasibətdə ali təhsilli respondentlərin 90.7%-i, dövlət sektorunda işləyənlərin 91.8%-i və evdar xanımların 92.4%-i müsbət yanaşma göstəriblər.

Sorğuda Azərbaycan qadınlarının dövlət idarəçiliyində təmsilçiliyi ilə bağlı rəylərdə maraqlı nəticələr əldə edilib. İştirakçılara təqdim edilən "Sizcə, Azərbaycanda qadınların yüksək vəzifələrə təyinatı yetərli səviyyədədir, yoxsa yetərli səviyyədə deyil?" sualına onların 52.0%-i "yetərli səviyyədədir", 40,9%-i "yetərli səviyyədə deyil" cavabını verib. 7,1%-i bu istiqamətdə fikirlərini bildirməkdə çətinlik çəkib.



Sorğular 2024-cü ilin 15-19 fevral tarixlərində, 18 yaşından yuxarı 390 respondent arasında kompüter dəstəkli telefonla müsahibə üsulundan (CATI) istifadə olunmaqla keçirilib. Seçmə ehtimallı üsulla ölkə üzrə əhalinin paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub. 12 iqtisadi rayon seçmə çərçivəsində əhatə olunub. Təsadüfiliyi təmin etmək məqsədilə sözügedən iqtisadi rayonlar üzrə inzibati rayon və şəhərlərə aid telefon nömrələri müvafiq məlumat bazasından xüsusi proqram vasitəsilə sistemli üsulla seçilərək zənglər olunub.

Sorğularda anonimlik təmin olunub. Respondentlərə sorğunun könüllü iştirak əsasında aparıldığı və nəticələrin yalnız ümumiləşdirilmiş formada istifadə olunacağı barədə zəruri məlumatlar çatdırılıb. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 5% təşkil edir.

# Ziya Məmmədov ilə oğlu arasında narazılıq

## Anar Məmmədovun son uğursuzluqları sabiq naziri əsəbiləşdirib

***Sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədova məxsus Böyük Britaniyanın paytaxtı Londonda fəaliyyət göstərən KFC restoranlar şəbəkəsi böyük zərər edib. Bu barədə məlumatlarda bildirilir ki, səhmlərinin 75%-i Anar Məmmədova məxsus olan "B.J.R. Foods Limited" şirkəti 2022-ci ili 1 milyon 182 min 13 funt-sterlinq (2,6 milyon manat) zərərlə başa vurub.***

Müqayisə nəticəsində aydınlaşıb ki, "B.J.R. Foods Limited" şirkəti 2021-ci ili 3 milyon 244 min 762 funt-sterlinq mənfəətlə başa vurub.

"Zqan UK Ltd" şirkətinə rəhbərlik ediblər. Məlum olduğu kimi, Azərbaycanda fəaliyyət göstərən ZQAN holdinq Anar Məmmədova məxsus olub. ZQAN adı da sabiq nazirin özünün və ailə üzvlərinin adının baş hərflərindən yaranıb.

O da vurğulanır ki, Bakıda fəaliyyət göstərən KFC restoranları da vaxtilə Anar Məmmədova məxsus ZQAN holdinqə bağlı olub. ZQAN holdinq 2013-cü ildə adını dəyişərək "Garant" holdinq olub. 2017-ci ildə Ziya Məmmədov nazir vəzifəsindən çıxarıldıqdan sonra KFC restoranları vaxtı ilə fövqəladə hallar naziri Kəmaləddin Heydərovun oğullarının rəhbərlik etdiyi "Gilan" holdinqin tərkibinə daxil edilib.



Bundan başqa şirkətin illik dövriyyəsi isə 7,1% azalaraq 41 milyon funt-sterlinqdən 38 milyon funt-sterlinqə düşüb.

Qeyd edək ki, Londonda məşhur restoranlar şəbəkəsi olan KFC françayzinqinə sahib olan "B.J.R. Foods Limited" şirkətinin 75%-lik payını Anar Məmmədov 23 iyul 2021-ci il tarixində satın alıb.

Onu da bildirək ki, Anar Məmmədov eyni tarixdə daha 3 şirkətin 75%-lik payını satın alıb. Bu şirkətlər "Colonel Foods Limited", "1st RATE Investment (UK) Limited" və "Amber Restaurants Limited" şirkətləridir.

"Colonel Foods Limited" və "Amber Restaurants Limited" 152 gündən artıqdır ki, hesabatlarını müvafiq qurumlara təqdim etməyiblər.

"Yeni avaz"ın yazdığına görə, səhmlərinin 75%-i Anar Məmmədova aid olan bu şirkətlərə hazırda Böyük Britaniya vətəndaşları 1970-ci il təvəllüdlü Zafar Abbasi və 1967-ci il təvəllüdlü İqbal Sulemani rəhbərlik edirlər. Bu şəxslər daha əvvəl - 2004-2010-cu illərdə Londonda fəaliyyət göstərən

Bəzi iddialara görə isə son zamanlar Z.Məmmədovla oğlu arasında münasibətlər xeyli soyuyub. Buna səbəb isə atası vəzifədə olarkən bundan faydalanaraq əldə etdiyi imkanlar və imtiyazlar hesabına qısa müddətdə ölkə xaricində geniş biznes şəbəkəsi quran Anar Məmmədovun ard-arda yaşadığı uğursuzluqlardır. Onun bu uğursuzluqları artıq ənənəyə çevrilib və etdiyi zərər milyonlarla dollarla ifadə olunur.

Məsələn, 2022-ci ilin sonlarında sabiq nazirin oğlu Londonda daşınmaz əmlak şirkəti təsis edib. Təsis sənədlərindən belə aydınlaşıb ki, A.Məmmədov həmin şirkətin adını "Benefisiar" qoyub. Lakin aradan keçən bir ildə "Benefesiar"ın özünü doğrulda bilmədiyi deyilir.

Bundan əvvəl isə Ziya Məmmədovun oğlu Maltada yeni şirkət açıb. 2020-ci ildə qurulan və "Zizi" adlandırılan şirkətin də hazırkı fəaliyyəti ilə bağlı düzəməlli məlumat yoxdur. Bircə o bəllidir ki, "Zizi" məşhur kofe brendlərindən birinə aiddir və eyni adda dünyanın bir sıra ölkələrində kafeteriyalar fəaliyyət göstərir.

Malta Biznes Qeydiyyatı Dövlət Agentliyinin sənədlərinə görə Ziya Məmmədovun oğlu "ZIZI FOOD COMPANY LIMITED"i 2020-ci il fevralın 5-də 1200 avro nizamnamə kapitalı ilə Valettada qeydiyyatdan keçirib.

Lakin bir müddət sonra Anar Məmmədov şirkətin adını dəyişdirərək onu AKSON ENERGY LIMITED adı ilə yenidən qeydiyyatdan keçirib.

Şirkət Valettanın Lucia küçəsi 147/ünvanında hüquqi qeydiyyatdadır. Nizamnaməyə görə şirkətin təsisçisi İngiltərənin ən bahalı yaşayış kompleksi olan 1, HYDE PARK APARTMENT B062 100 ünvanında daimi qeydiyyatda olan Azərbaycan vətəndaşı Anar Məmmədov (pasport seriyası: C01662717), onun tərəfdaşı isə 25 il Maltada qeydiyyatdan keçmiş G M CORPORATE AND FIDUCIARY SERVICES LIMITED şirkətidir.

Oğul Məmmədovun bu biznes ziqzaqları onun yatırdığı son sərmayələrin həqiqətən də uğursuzluğa düçar olduğunu göstərir. Belə olan təqdirdə isə ata Məmmədovun öz oğluna acıqlanmasını anlamaq mümkündür. Ehtimal etmək olar ki, Londonda aldığı KFC şəbəkəsi də külli miqdarda ziyan etdikdən sonra Məmmədovlar arasında soyuqluq daha da dərinləşəcək.

Xatırladaq ki, 72 yaşlı Z.Məmmədov 2002-2017-ci illərdə nəqliyyat naziri postunu tutub. O, vəzifəsini itirdikdən sonra sahib olduğu nəhəng biznes imperiyası da çöküb. Bundan başqa, oğlu Anar Məmmədov da Azərbaycanla əlaqələrini tədricən kəsməyə başlayıb və son vaxtlar ölkəyə ümumiyyətlə gəlmir.

***Toğrul Əliyev***

09_27 IYUl-QARA.qxd 3/7/2024 10:49 PM Page 10



# "Şərurlu İsfəndiyar"ın yeni müəmması

## Qalmaqallı iş adamının Bakıda kollec almasının arxasında başqa məqsəd var?

***Tikinti maqnatı İsfəndiyar Axundov (Şərurlu İsfəndiyar) kollec alıb. Bu barədə yola salmaq üzrə olduğumuz həftə yayılan məlumatda bildirilib ki, İsfəndiyar Axundov Azərbaycan Tətbiqi Elmlər Kollecinin sahibinə çevrilib.***

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vegri Xidmətinin reyestr məlumatlarında da Azərbaycan Tətbiqi Elmlər Kollecinin qanuni təmsilçisi kimi tikinti maqnatının adı qeyd edilib. O, bu ilin martından kollecin qanuni təmsilçisidir.

İddialara görə, İsfəndiyar Axundovun təhsil sektoruna yatırım etmək kimi bir niyyəti yoxdur. Bildirildiyinə görə, qalbaxmayaraq onun bunu yalanlaması maraq doğurur. Belə güman etmək olar ki, bu, "Şərurlu İsfəndiyar"ın sözügedən kolleci almaqda həqiqətən də onun ərazisində göydələn ucaltmaq istəyi ilə bağlıdır. Ona görə də iş adamı sözügedən xəbəri təkzib edərək mövzunu medianın gündəmindən çıxarmağa çalışır.

Qeyd edək ki, sonuncu dəfə haqqında danışdığımız tikinti maqnatının tikdiyi binalarda lift problemi ilə gündəmə gəlmişdi. Belə ki, ayyarım öncə Bakıda binanın lifti qırılmış və xəsarət alanlar olmuşdu. Söhbət Xətai rayonu, Gəncə prospekti, 2980/81 ünvanındakı liftdən gedir. Baş verən qəza səbəbi liftə yük çox vurulub. Başqa problem yoxdur..."

MTK rəsmisi onu da əlavə etmişdi ki, lifti qırılan bina "Universal Servis" MTK tərəfindən 2008-ci ildə inşa edilib. Lift də binaya elə həmin ildə quraşdırılıb: "2019-cu ildə isə bina istismara verilib. Lakin sakinlərin məskunlaşması 20 ilə yaxındır. Binada xidmət sakinlərin təyin etdiyi fiziki şəxs tərəfindən göstərilir.

Qeyd edək ki, "Şərur" MTK "Şərurlu İsfəndiyar"ın aparıcı şirkətidir. Üstəlik, daha əvvəl də "Şərur" MTK-ya məxsus başqa binanın liftində bənzər problem yaşanıb. Söhbət paytaxtın Nərimanov rayonunun Bakıxanov küçəsi, 66 ünvanın-

maqalları ilə məşhur olan iş adamına sadəcə kollecin ərazisi lazımdır. İsfəndiyar Axundovdan əvvəl kollecin qanuni təmsilçisi Dünyamalıyeva Sabirə Səfi qızı olub. Araşdırmalar nəticəsində məlum olub ki, Sabirə Dünyamalıyeva Azərbaycan Rəssamlıq Akademiyasının professorudur. O, 1990-1993-cü illərdə Bakı Qızlar Kollecinin, 1993-cü ildən sonra isə Azərbaycan Ali Tətbiqi Elmlər Kollecinin direktoru vəzifəsində işləyib. Hazırda sözügedən kollec fəaliyyət göstərmir.



Yeri gəlmişkən, 2008-ci ildə kollecin Naxçıvan şöbəsi saxta diplom satışı ilə gündəmə gəlib. Həmin vaxt Naxçıvan Muxtar Respublikası (MR) Daxili İşlər Nazirliyinin (DİN) İstintaq və Təhqiqat şöbəsinin rəisi, polis polkovnik-leytenantı Hikmət Əliyev jurnalistlərə açıqlamasında bildirmişdi ki, Naxçıvan şəhər sakini Zöhram Fuad oğlu Cəfərov da qeyri-qanuni yolla 1990-cı ildə "Gənc təbib", 1993-cü ildə isə "Azərbaycan Ali Tətbiqi Elmlər Kollecinin Naxçıvan şöbəsi" adlı məktəb yaradıb, hər iki "tibb məktəbi" 2002-ci ilədək 1000 nəfərdən çox vətəndaşa saxta diplom verib.

"Qaynarinfo" saytı məsələ ilə bağlı İsfəndiyar Axundovla əlaqə saxlayıb. Maraqlıdır ki, iş adamı kollec almadığını deyib. "Mən kollec almamışam, xəbərim yoxdur bu məsələdən", deyə o, vurğulayıb.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarında Azərbaycan Tətbiqi Elmlər Kollecinin qanuni təmsilçisi kimi tikinti maqnatının adının qeyd edilməsinə ilə 4 nəfər xəsarət almışdı. Belə ki, sakinləri binanın 1-ci mərtəbəsindən 6-cı mərtəbəsinə qaldıran lift sonuncu mərtəbədə relsdən çıxaraq sürətlə aşağı düşmüşdü.

Yerli medianın araşdırması əsasında məlum olmuşdu ki, lifti qırılan bina "Şərur" MTK-nın balansındadır. Adıçəkilən şirkətin Mətbuat Xidmətinin rəhbəri Tünzalə İsmayılova isə baş verən hadisə ilə bağlı soruğuya belə cavab vermişdi: "Liftin qırılma səbəbi yükün ağır olmasına görədir. Dəfələrlə bu barədə sakinlərə xəbərdarlıq olunub, hətta bir dəfə də bu barədə elan liftin qapısına yapışdırılıb. Bu hadisə zamanı da yerləşən "Şərur" MTK-ya məxsus çoxmərtəbəli yaşayış binasından gedir.

Həmin binanın liftinin qəzalı vəziyyətdə istismar olunması barədə şikayətlər yayılmışdı.

Yeri gəlmişkən, "Şərurlu İsfəndiyar"ın şirkətləri tərəfindən inşa edilən binaların keyfiyyəti müxtəlif vaxtlarda mübahisə mövzusu olub. Hərçənd iş adamının özü Türkiyədə ötən ilin fevralında baş verən dəhşətli zəlzələdən sonra "Belə bir zəlzələ burada olarsa, insanlara deyərəm ki, evinizdə oturun, çayınızı için. Mən bunu məsuliyyətimlə deyirəm" açıqlaması ilə çıxış etmişdi...

***Toğrul Əliyev***

# Ədliyyə Nazirliyinə QHT-lərlə bağlı yeni səlahiyyət verildi

***Qeyri-hökumət təşkilatlarının illik maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilməsi qaydasının hazırlanmasında Ədliyyə Nazirliyi də iştirak edəcək.***



"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyevin imzaladığı Fərmanda deyilir.

Dövlət başçısı "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə dərman imzalayıb.

Fərmana əsasən, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 4 oktyabr tarixli 401 nömrəli Fərmanın 2.3-cü bəndinə "Maliyyə Nazirliyi" sözlərindən sonra "və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi" sözləri əlavə olunur.

Qeyd edək ki, qeyri-hökumət təşkilatı illik maliyyə hesabatını hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim edir. Bu hesabatların forması, məzmunu və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Müvafiq icra hakimiyyəti dedikdə Maliyyə Nazirliyi nəzərdə tutulurdu, dəyişikliklə Ədliyyə Nazirliyinə də bu səlahiyyət verilib.

Fərmana əsasən, Maliyyə Nazirliyinin səlahiyyətləri daxilində qanunla nəzərdə tutulmuş qaydada və hallarda strukturuna daxil olan müvafiq qurumlar vasitəsilə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı nəzarət orqanının funksiyalarını həyata keçirməsi vəzifəsi ləğv edilib.

# Universitetlərdə təhsilalma formasının dəyişdirilməsi qaydası təsdiqləndi

***Ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) qaydaları təsdiqlənib.***

"Unikal" xəbər verir ki, bu barədə Elm və Təhsil Nazirliyinin Kollegiyası qərar verib. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.10-1-ci maddəsinə əsasən hazırlanmışdır və ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) məsələlərini tənzimləyir.

# Vəzifəli şəxslər həbs edildi

## "Avro Qrand" MMC-nin vəzifəli şəxsləri barəsində cinayət işi məhkəməyə göndərilib

***"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb. "Avro Qrand" Məhdud Məsuliyyətli Cəmiyyətinin vəzifəli şəxslərinin qanunsuz yollarla vətəndaşların pulunu ələ keçirmələri faktı ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılmış cinayət işinin ibtidai istintaqı yekunlaşıb.***

İstintaqla qeyd olunan hüquqi şəxsin təsisçisi və faktiki rəhbəri Xanlar Cəfərov, satış üzrə meneceri Xəzər Əliyev və sonuncunun tanışı Elgiz İsmayılovun qabaqcadan əlbir olaraq saxta sənədlər təqdim etməklə Abşeron rayonu, Xırdalan şəhəri, H.Aslanov küçəsi, 21-ci məhəllədə yerləşən yaşayış binasında faktiki sahibi olan mənzillərin dələduzluq yolu ilə təkrarən digər vətəndaşlara satılmasına nail olmalarına, bu yolla külli miqdarda pul vəsaitini ələ keçirmələrinə əsaslı şübhələr müəyyən edilib.

09_27 IYUl-QARA.qxd 3/7/2024 10:49 PM Page 11





## Nazir Məcnun Məmmədov Saatlıda fermerlərlə görüşdü

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər.***

"Unikal" xəbər verir ki, tərtib edilən qəbul cədvəlinə müvafiq olaraq Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov 7 mart tarixində Saatlı Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) inzibati binasında Ağdam, Ağstafa, Beyləqan, Bərdə, Biləsuvar, Füzuli, İmişli, Neftçala, Saatlı, Sabirabad, Şabran, Şamaxı, Şəki, Tərtər və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Qəbuldan öncə nazir Məcnun Məmmədov və Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov şəhərin mərkəzində ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda vətəndaşların müraciətləri əsasən fermerlərə subsidiya, ixtisasa uyğun işlə təmin edilmə, dövlət qulluğuna qəbul qaydaları, dəymiş ziyanın ödənilməsi, texnika ilə təminat, torpaq sahəsinin ayrılması, pay torpağının zəbt olunması, təsərrüfat suyu ilə təminat, pambıq şirkətlərinin müqavilə bağlamaması və digər məsələlərlə bağlı olub. Nazir Məcnun Məmmədov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerində həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılması üçün qeydiyyata alınıb. Nazir vətəndaşlarla görüş zamanı dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulayıb. Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Daha sonra Nazir Məcnun Məmmədov Aqrar İnkişaf Könüllüləri ilə görüşüb, aktiv fəaliyyəti ilə fərqlənən bir qrup könüllüyə sertifikatlar təqdim edib.

Saatlı DAİM-in binasında Aqrar Xidmətlər Agentliyinin Səyyar Xidmət Qrupu mexanizatorlar üçün səyyar xidmət təşkil edib. Xidmət zamanı etibarlılıq müddəti bitən traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün mexanizatorların sürücülük vəsiqələri yeniləri ilə əvəz edilib. "Səyyar Xidmət" qrupu öz fəaliyyətini gün ərzində davam etdirəcək. Nazir Məcnun Məmmədov səyyar xidmətin təşkili prosesi ilə maraqlanıb, mexanizatorların müraciətlərini dinləyib, lazımi tövsiyələrini verib.

# Ermənilərin "mədəni irs" hay-küyü: Nə etsələr də, "Xaçkar"dan o tərəfə keçə bilmirlər

***Xankəndi şəhərində işğal dövründə inşa edilmiş qanunsuz tikililər sökülür. Qanunsuz tikililər arasında qondarma qurumun "parlament" adlanan binası və "Artsaxı azad etmiş döyüşçülər" ittifaqının binası da var.***



Xankəndidə qanunsuz tikililərin sökülməsi Ermənistanda yersiz səs-küyə səbəb olub. Ermənilər bu binaların, eləcə də digər qanunsuz tikililərin sökülməsinə siyasi don geydirməyə çalışır, guya erməni irsinin silinməsi kimi təqdim etməyə cəhd göstərirlər.

Təbii ki, bu iddiaların hamısı əsassızdır. Ermənistanın Qarabağı işğal etməsindən sonra Xankəndidə lazımsız tikinti işləri həyata keçirilib, şəhərin Baş planına uyğun olmayan tikililər inşa olunub.

Azad Vətən Partiyasının sədri Akif Nağı Bakıvaxtı.az-a açıqlamasında deyib ki, ermənilər istənilən hadisənin ətrafında yalandan hay-küy salmağı çox gözəl bacarırlar.

Onun sözlərinə görə, son günlər Ermənistanın ombudsmanı həyasızcasına iddia edir ki, guya Azərbaycanda ermənilər incidilir, onlara işgəncə verilir:

"Müxtəlif çirkin üsullardan istifadə etməklə dünya ictimaiyyətini aldatmağa çalışırlar. "Ermənilərə işgəncə" uydurması baş tutmadığına görə, indi də "Xankəndidə erməni irsi məhv edilir" saxtakarlığına keçiblər. Anlamırlar ki, belə ittihamlarla, şər-böhtanla nəyəsə nail olmaq qeyri-mümkündür. Əksinə, prosesin gərginləşməsi ilk növbədə ermənilərin özlərinə ziyandır. Qarabağ, Xankəndi Azərbaycan ərazisidir. Öz ərazimizdə istənilən tikintini, söküntünü apara bilərik. Daxili işimizdir. Xankəndidə heç bir erməni irsi yoxdur. Sökülən binalar separatçıların son dönəmdə qanunsuz olaraq tikdikləri obyektlərdir".

A.Nağı vurğulayıb ki, ümumiyyətlə, orada ermənilərə xas nişanə yoxdur: "Nə etsələr də, "Xaçkar"dan o tərəfə keçə bilmirlər. "Xaçkar" da adi başdaşıdır. Ermənilərə aid orada nəsə olmalıdır ki, "mədəni irs" hay-küyünü qaldırsınlar. Beynəlxalq təşkilatlar da erməni yalanlarına aldanmamalıdır. Həqiqəti görmək istəyirlərsə, gəlib baxsınlar, öz gözləri ilə görsünlər".

Müsahibimiz qeyd edib ki, Azərbaycanın daxili işlərinə müdaxilə etmək yolverilməzdir: "İşğaldan azad etdiyimiz ərazilərdə bizim öz planlarımız var. Ermənilərin hay-küyünə məhəl qoymadan işimizi davam etdirməliyik".

# 2023-cü ildə Ağdaşın istehsal və xidmət sahələri üzrə əsas göstəriciləri...

***2023-cü ildə Ağdaş rayonunda ümumi məhsul buraxılışının 67,6 faizi istehsal sahələrinin, 32,4 faizi isə xidmət sahələrinin payına düşüb.***



Rayonun əsas istehsal sahəsi olan kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarında 227 milyon 512,0 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da 95 milyon 304,5 min manatı və ya 41,9 faizi bitkiçilik, 132 milyon 207,5 min manatı və ya 58,1 faizi heyvandarlıq məhsullarının payına düşmüşdür.

Rayonun 17 sənaye müəssisəsi və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 82 milyon 989,4 min manatlıq və ya əvvəlki ilə nisbətən qiymət indeksi nəzərə alınmaqla 18,2 faiz az sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. 2023-cü ildə sənaye məhsulunun 87,9 faizi emal, 10,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 2,0 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. İstehsal olunmuş sənaye məhsulunun 9 milyon 244,6 min manatı və ya 11,1 faizi dövlət, 73 milyon 744,8 min manatı və ya 88,9 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal olunmuş sənaye məhsulunun 74 milyon 897,0 min manatı və ya 90,3 faizi hüquqi şəxslərin, 7 milyon 312,1 min manatı və ya 8,8 faizi ev təsərrüfatlarının, 780,3 min manatı və ya 0,9 faizi isə fərdi sahibkarların payına düşmüşdür.

2023-cü ildə rayonda 12 milyon 204,4 min manatlıq tikinti-quraşdırma işləri yerinə yetirilmiş, bu da əvvəlki illə müqayisədə 18,0 faiz çoxdur. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki illə müqayisədə 11,8 faiz azalmış, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 22,1 faiz artmışdır. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 1 milyon 108,1 min manatı və ya 9,1 faizi dövlət, 11 milyon 96,3 min manatı və ya 90,9 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür.

Rayonda ticarət, nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı və informasiya və rabitə sahəsində 154 milyon 872,4 min manatlıq xidmətlər istehsal olunmuşdur. Bu da əvvəlki illə müqayisədə faktiki qiymətlərlə 7,1 faiz və ya 10 milyon 301,5 min manat çox, qiymət indeksi nəzərə alınmaqla isə 1,6 faiz və ya 2 milyon 251,1 min manat azdır. İstehsal olunmuş xidmətlərin 146 milyon 904,2 min manatı və ya 94,8 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində, 7 milyon 233,1 min manatı və ya 4,7 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 735,1 min manatı və ya 0,5 faizi informasiya və rabitə sahəsində olmuşdur. Ticarət şəbəkələrində əhaliyə 459 milyon 75,6 min manatlıq istehlak malları satılmış və 2022-ci illə müqayisədə rayonda 1,7 faiz və ya 7 milyon 294,1 min manat az istehlak malları realizə olunmuşdur.

***Ağdaş Rayon Statistika İdarəsi***

09_27 IYUI-QARA.qxd 3/7/2024 10:50 PM Page 12



## 5.3.10. gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Məktəblər vətənpərvər gənclər yetişdirməlidir!

## MÜTDA: "Paytaxtda ümumi təhsil müəssisələrində Milli Qəhrəmanların və şəhidlərin adlarının müxtəlif siniflərə verilməsi təşəbbüsü genişlənməkdədir".



***Gənclərin, uşaqların milli mənlik şüurunun inkişaf etdirilməsi, onlarda vətənpərvərlik hisslərinin formalaşdırılması cəmiyyətimizdə hər zaman aktualdır.Bu mənada təhsil müəssisələrinin üzərinə böyük məsuliyyət düşür.***

Azərbaycanın təhsil müəssisələrinin məqsədi təkcə savadlı, intellektli gənclər yetişdirmək deyil, həm də yüksək mənəviyyatlı, Azərbaycan xalqının milli dəyərlərinə sadiq vətənpərvər gənclər yetişdirməkdir. Bununla yanaşı, təhsilimizin məqsədi Azərbaycan vətəndaşını, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü yetişdirməkdir. Odur ki, gənc nəslin vətənpərvər ruhda tərbiyəsində məktəblərin rolu böyükdür. Bu gün məktəblərimizdə təkcə bilik, savad verilməməli, həm də gənclərə vətənpərvərlik hissi aşılanmalıdır. Ümumtəhsil məktəblərində həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə şagirdlərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də milli-mənəvi dəyərlərin qorunub saxlanmasına müsbət təsir göstərir. Bir sözlə, cəmiyyəti inkişaf etdirən, irəli aparan vətəndaşlar məktəblərimizdə tərbiyə alır və formalaşır. Danılmaz faktdır ki, məktəblərimizdə təbliğ edilən vətənpərvərlik ideyaları gənclərdə fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlilik kimi ən ülvi hissləri aşılayır.

Bəs görəsən Azərbaycanın təhsil müəssisələrində gənc nəslin vətənpərvər ruhda böyüməsi üçün hansı işlər görülür?

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən "Unikal" qəzetinin sorğusuna cavabda bildirilib ki, şagirdlərin milli vətənpərvərlik ruhunda, azərbaycançılıq ideologiyası əsasında yetişdirilməsi əsas hədəflərdəndir.

"Bu məqsədlə istər Bakı Şəhəri üzrə, istərsə də Regional Təhsil İdarələri tərəfindən müxtəlif layihələr həyata keçirilir. "7-dən 17-yə vətənpərvər!", BŞTİ və "Azərbaycan müəllimi" qəzetinin birgə əməkdaşlığı çərçivəsində təhsil işçilərinin "Şuşa - böyük zəfərin zirvəsi" adlı layihələri böyük maraq doğurur. Layihələr çərçivəsində Azərbaycanın tarixi və coğrafiyası, mədəni abidələri, adət-ənənələri, tanınmış şəxsiyyətləri, dövlət bayramları, xüsusi günləri, eyni zamanda "Şuşa İli", Anım Günü və Zəfər Günü ilə bağlı ümumi təhsil məktəblərində tədbirlər təşkil edilir. Paytaxtda ümumi təhsil müəssisələrində Milli Qəhrəmanların və şəhidlərin adlarının müxtəlif siniflərə verilməsi təşəbbüsü genişlənməkdədir. Vətənpərvərlik mövzusunda həyata keçirilən genişmiqyaslı tədbirlər arasında "Şahin" hərbi-idman oyununun da mühüm rolu var. VIII-X sinif şagirdləri arasında keçirilən bu oyunun əsas məqsədi yeniyetmə və gənclərin hərbi vətənpərvərlik, milli ruhda tərbiyəsi işini daha da gücləndirmək, məktəblilərin hərbi hazırlıq səviyyəsini yüksəltmək, Çağırışaqədərki hazırlıq fənninin tədrisini daha da təkmilləşdirməkdən ibarətdir. 2021-2022-ci tədris ilindən etibarən bütün ümumi təhsil müəssisələrində "Zəfər tarixi" kursu tədris edilir. Dərslikdə Qarabağın tarixi, rəşadətli Azərbaycan ordusunun vətən müharibəsində qazandığı parlaq qələbə gənc nəslə çatdırılır" deyə sorğumuza cavabda bildirilib.

Qeyd edək ki, Prezident İlham Əliyev də çıxışlarında, xalqa müraciətlərində bu məsələyə xüsusi diqqət çəkir. O, dəfələrlə bildirib ki, bugünkü gənclər Azərbaycanı sevən, torpağına və millətinə bağlı, dövlət başçısının həyata keçirdiyi ideologiyaya sadiqliyi nümayiş etdirən nəslin nümayəndələridir.

Ümumilikdə gənc nəslin milli mənlik şüurunun inkişafı Azərbaycan üçün prioritetdir. Gənclərin vətənpərvər ruhda böyüməsi bizim üçün vacibdir və Vətənə bağlılığın ən yaxşı nümunəsidir. Şəhidlərin, qazilərin həyatının öyrənilməsi, onların keçdiyi döyüş yolunun gələcək nəsillərə ötürülməsi bu istiqamətdə aparılmalı vacib işlərdəndir. Onların qəhrəmanlıqlarının öyrənilməsi gənclərin vətənpərvər ruhda böyüməsində böyük rol oynaya bilər. Müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz Vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı, müstəqilliyi uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilərlər. Hər bir dönəmdə Vətənin çətin günündə, ağır sınaq zamanında mərd, sadiq gənclərə böyük ehtiyac olub. Gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Müharibədə əsas missiyanı, məhz Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər.

Ali Baş Komandan çıxışlarının birində vurğulayıb: "Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı, müharibənin nəticələri necə ola bilərdi. Əlbəttə, müharibədə əldə edilmiş qələbənin bir çox səbəbləri var: həm ölkədaxili səbəblər, həm də bizim xarici müstəvidəki fəaliyyətimiz, əlbəttə ki, güclü iqtisadiyyatımız, ordumuzun müasirləşdirilməsi. Ancaq əsas amil vətənpərvərlikdir. Milli ruh, milli ləyaqət və vətənpərvərlik onları irəliyə aparırdı. Belə xalqla heç kim mübarizə apara bilməz".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Kolleclərdə yoxlamalar aparıldı - Nöqsanlar aşkarlandı

***Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin nümayəndələri regionlarda yerləşən kolleclərdə monitorinq keçirib.***

Bu barədə agentlikdən məlumat verilib. Agentliyin Orta ixtisas təhsili müəssisələri ilə iş sektorunun müdiri Səbinə Ənvərli və Hüquq və insan resursları sektorunun müdiri Siyavuş Əhmədzadə Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci, Ağdaş Dövlət Humanitar Kolleci, İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci, Şamaxı Dövlət Regional Kolleci və Şəki Dövlət Regional Kollecində olublar.

Aparılan monitorinqlər zamanı müəllim və tələbə heyətinin problemləri, şikayət və təklifləri dinlənilib, müvafiq qeydlər aparılıb və suallar cavablandırılıb. Həmçinin tədris sənədləri yoxlanılıb, aşkar olunan nöqsanların aradan qaldırılması üçün müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, orta ixtisas müəssisələrində monitorinqlərin keçirilməsində əsas məqsəd müəssisələrdə tədrisin təşkilini izləmək, problem və ehtiyacları müəyyən etmək və onlara uyğun tədbirlər görməkdir.

## Xaricdə təhsil almış daha 21 nəfərin diplomu tanınmadı

***Fevral ayı üzrə xaricdə təhsil almış 265 müraciətçinin diplomunun tanınması üzrə 244-ü barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 21 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.***



Bu barədə "Unikal"a Təhsildə Keyfiyyət Təminatı Agentliyindən məlumat verilib.

Qeyd olunub ki, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 15, dövlət nümunəli olmayan diplom üzrə 3, akkreditasiyasız ali təhsil müəssisəsi səbəbilə 2, təhsil forması üzrə 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşmışdır.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Ukraynadan 77, Rusiyadan 69, Türkiyədən 68, Gürcüstandan 13, Macarıstandan 9, İtaliyadan 7, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı 6, Amerika Birləşmiş Ştatlarından 4, Belçikadan 2, Çindən 2, Belarusdan 1, Fransadan 1, Hindistandan 1, İsveçdən 1, Kiprdən 1, Litvadan 1, Polşadan 1, Slovakiyadan 1 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, iqtisadiyyat üzrə 41, maliyyə üzrə 23, beynəlxalq münasibətlər üzrə 18, menecment üzrə 18, hüquqşünaslıq üzrə 15 müraciətçi qeydə alınıb. Sənədlərə ortalama baxılma müddəti 13 iş günü təşkil edib.




## Samuxda 2023-cü il üçün iqtisadi göstəricilər belə olub

***Samux rayonunda 2023-cü ildə orta aylıq nominal əmək haqqı 611,8 manat olub.***

2023-cu il ərzində Samux rayonun iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 5710 nəfər və hər bir işçiyə düşən orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 14,1 faiz artaraq 611,8 manat təşkil etmişdir. İqtisadiyyatın dövlət sektorunda muzdla çalışan işçilərin sayı 4039 nəfər, orta aylıq nominal əməkhaqqı 644,8 manat, qeyri dövlət sektorunda isə muzdla çalışan işçilərin sayı 1671 nəfər, orta aylıq nominal əməkhaqqı 519,2 manat olmuşdur.

Ən çox orta aylıq nominal əməkhaqqı iqtisadiyyatın kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, maliyyə və sığorta fəaliyyətində, peşə, elmi və texniki fəaliyyətlə məşğul olan sahələrdə, dövlət idarəetməsi, müdafiə, sosial təminat orqanlarında, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, istirahət, əyləncə və incəsənət sahəsində və digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində mövcud olmuşdur.

Muzdla çalışan işçilərin sayının 34,8 faizi təhsil müəssisələrində, 13,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq təsərrüfatının, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,7 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat idarələrinin, 15,3 faizi ticarət , nəqliyyat vasitələrinin təmiri müəssisələrinin 7,0 faizi istirahət , əyləncə və incəsənət sahəsində, 13,7 faizi isə iqtisadiyyatın digər fəaliyyət növləri ilə məşğul olan sahələrinin işçiləri olmuşdur.

*Samux Rayon Statistika İdarəsi*

## Mühəndis bölmələrində döyüş hazırlığı məşğələləri keçirilir

***Müdafiə nazirinin 2024-cü il üçün təsdiq etdiyi plana uyğun olaraq, Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri ilə döyüş hazırlığı üzrə məşğələlər keçirilir.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Keçirilən məşğələlər zamanı istehkamçılar silahlanmada olan müasir mühəndis avadanlıqlarından istifadə etməklə nəqliyyat vasitəsinə yerləşdirilmiş partlayıcı qurğunun aşkar olunaraq zərərsizləşdirilməsi üzrə tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

Mühəndis təminatı yerinə yetirən bölmələrin şəxsi heyəti ilə keçirilən məşğələlərin əsas məqsədi peşəkarlıq səviyyəsinin və döyüşə hazırolma vəziyyətinin daha da artırılmasıdır.

# Tələbələrin kolleclərə hansı halda bərpa edildiyi məlum oldu

***Tələbələrin orta ixtisas təhsili müəssisəsinə bərpa olunma qaydası açıqlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Elm və Təhsil Nazirliyinin Kollegiyasının orta ixtisas təhsili müəssisələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) qaydasında əksini tapıb.

Orta ixtisas təhsili müəssisəsindən xaric olunmuş şəxslər xaric olunma tarixindən 10 il müddətində yalnız əvvəl təhsil aldığı orta ixtisas təhsil müəssisəsinə bərpa olunmaq üçün müraciət edə bilərlər.

Təhsil müəssisəsi (xüsusi təyinatlı orta ixtisas təhsili müəssisəsi istisna olmaqla) yenidən təşkil edildiyi və ya ləğv olunduğu halda sabiq tələbə təhsil aldığı orta ixtisas təhsili müəssisəsinin hüquqi varisi olan və ya Nazirliyin

çu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinə bərpa oluna bilərlər. Belə hallarda xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinə bərpa həmin təhsil müəssisələrinin tabe olduqları qurumların razılığı ilə, bu Qaydaların 4.3-4.6-cı bəndlərində göstərilən qaydada, lakin ən çoxu müvafiq ixtisasın normativ təhsil müddətindən sonrakı 3 (üç) il ərzində (müddətli həqiqi hərbi xidmət dövrü nəzərə alınmamaqla) həyata keçirilir. Bu zaman xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrindən xaric olunaraq müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət hüququnu saxlayan sabiq kursantlar həmin möhlət hüququnun qüvvədə olduğu müddətdə, müddətli həqiqi hərbi xidmətə göndərilən sabiq kursantlar müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra, hərbi və xüsusi rütbəli şəxslərlə komplektləşdirilən dəyişən heyətin sırasından xaric edilmiş digər şəxslər isə xidməti fəaliyyətlərini davam etdirdikləri müddətdə (qanunla müvafiq heyətlər üçün müəyyən edilmiş xidmətkeçmənin

Orta ixtisas təhsili müəssisəsinə bərpa zamanı şəxsin əvvəl təhsil aldığı ixtisas və təhsilalma forması üzrə kadr hazırlığı aparılmırsa, o, təhsil müəssisəsinə digər ixtisas və təhsilalma forması üzrə bərpa oluna bilər. Bu zaman tələbənin əvvəl təhsil aldığı və bərpa olunduğu ixtisaslar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 aprel tarixli 140 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı" ilə müəyyən olunmuş eyni ixtisas qrupu daxilində olmalıdır.

Təhsil müəssisəsinə bərpa barədə vətəndaşların müraciətlərinə bu Qaydaların 2.5-2.7-ci və 2.9-cu bəndlərinin tələbləri nəzərə alınmaqla baxılır. Xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrindən səhhətinə görə xaric olunan şəxslər uyğun ixtisaslar üzrə Azərbaycan Respublikasının müvafiq mülki orta ixtisas təhsili müəssisələrinə bu Qaydaların 4.1-ci bəndində göstərilən müddət ərzində bu Qaydaların 4.3-cü və 4.5-ci bəndlərinə uyğun olaraq bərpa oluna bi-

müəyyən etdiyi orta ixtisas təhsili müəssisəsinə bu Qaydaların 4.1-ci bəndində göstərilən müddət ərzində bərpa oluna bilər.

Təhsil müəssisəsinə bərpa olunma yay və qış tətili dövründə həyata keçirilir. Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olunmuş və müəyyən səbəblərdən sonradan xaric edilmiş şəxslərin birinci tədris ilində digər ixtisasa (qəbul olunduğu ixtisasdan fərqli ixtisasa) bərpasına yol verilmir.

Orta ixtisas təhsili müəssisəsinə bərpa zamanı şəxsin əvvəl təhsil aldığı ixtisas və təhsilalma forması üzrə kadr hazırlığı aparılmırsa, o, təhsil müəssisəsinə digər ixtisas və təhsilalma forması üzrə bərpa oluna bilər. Bu zaman tələbənin əvvəl təhsil aldığı və bərpa olunduğu ixtisaslar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 aprel tarixli 140 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı" ilə müəyyən olunmuş eyni ixtisas qrupu daxilində olmalıdır.

Təhsil müəssisəsinə bərpa barədə vətəndaşların müraciətlərinə bu Qaydaların 2.5-2.7-ci və 2.9-cu bəndlərinin tələbləri nəzərə alınmaqla baxılır. Xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrindən səhhətinə görə xaric olunan şəxslər uyğun ixtisaslar üzrə Azərbaycan Respublikasının müvafiq mülki orta ixtisas təhsili müəssisələrinə bu Qaydaların 4.1-ci bəndində göstərilən müddət ərzində bu Qaydaların 4.3-cü və 4.5-ci bəndlərinə uyğun olaraq bərpa oluna bilərlər. Digər səbəblərdən xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrindən xaric olunmuş şəxslərin mülki orta ixtisas təhsili müəssisələrinə bərpası bu Qaydaların 4.1-ci bəndində göstərilən müddət ərzində bu Qaydaların 4.3-4.6-cı bəndlərinin tələbləri gözlənilməklə aparılır.

Xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrindən xaric olunan şəxslər hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinin tələbələri üçün müəyyən edilmiş qəbul şərtlərinə cavab verdikləri halda, əvvəl təhsil aldıqları, yaxud digər hərbi qulluq-



yaş hədləri daxilində) xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinə bərpa olunurlar.

Bərpa olunmuş tələbənin şəxsi işi bərpa edilir. Bu şəxsi işə bərpa olunma haqqında əmrdən çıxarış, ölkə daxilində digər orta ixtisas təhsili müəssisəsindən xaric edilmiş tələbələrin şəxsi işinə isə "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsinə uyğun olaraq müvafiq arayış və xaric olunma haqqında əmrdən çıxarış əlavə edilir.

Orta ixtisas təhsili müəssisəsindən xaric olunmuş şəxslər xaric olunma tarixindən 10 il müddətində yalnız əvvəl təhsil aldığı orta ixtisas təhsil müəssisəsinə bərpa olunmaq üçün müraciət edə bilərlər.

Təhsil müəssisəsi (xüsusi təyinatlı orta ixtisas təhsili müəssisəsi istisna olmaqla) yenidən təşkil edildiyi və ya ləğv olunduğu halda sabiq tələbə təhsil aldığı orta ixtisas təhsili müəssisəsinin hüquqi varisi olan və ya Nazirliyin müəyyən etdiyi orta ixtisas təhsili müəssisəsinə bu Qaydaların 4.1-ci bəndində göstərilən müddət ərzində bərpa oluna bilər.

Təhsil müəssisəsinə bərpa olunma yay və qış tətili dövründə həyata keçirilir. Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olunmuş və müəyyən səbəblərdən sonradan xaric edilmiş şəxslərin birinci tədris ilində digər ixtisasa (qəbul olunduğu ixtisasdan fərqli ixtisasa) bərpasına yol verilmir.

lərlər. Digər səbəblərdən xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrindən xaric olunmuş şəxslərin mülki orta ixtisas təhsili müəssisələrinə bərpası bu Qaydaların 4.1-ci bəndində göstərilən müddət ərzində bu Qaydaların 4.3-4.6-cı bəndlərinin tələbləri gözlənilməklə aparılır.

Xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrindən xaric olunan şəxslər hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinin tələbələri üçün müəyyən edilmiş qəbul şərtlərinə cavab verdikləri halda, əvvəl təhsil aldıqları, yaxud digər hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinə bərpa oluna bilərlər. Belə hallarda xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinə bərpa həmin təhsil müəssisələrinin tabe olduqları qurumların razılığı ilə, bu Qaydaların 4.3-4.6-cı bəndlərində göstərilən qaydada, lakin ən çoxu müvafiq ixtisasın normativ təhsil müddətindən sonrakı 3 (üç) il ərzində (müddətli həqiqi hərbi xidmət dövrü nəzərə alınmamaqla) həyata keçirilir. Bu zaman xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrindən xaric olunaraq müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət hüququnu saxlayan sabiq kursantlar həmin möhlət hüququnun qüvvədə olduğu müddətdə, müddətli həqiqi hərbi xidmətə göndərilən sabiq kursantlar müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra, hərbi və xüsusi rütbəli şəxslərlə komplektləşdirilən dəyişən heyətin sırasından xaric edilmiş digər şəxslər isə xidməti fəaliyyətlərini davam etdirdikləri müddətdə (qanunla müvafiq heyətlər üçün müəyyən edilmiş xidmətkeçmənin yaş hədləri daxilində) xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinə bərpa olunurlar.

Bərpa olunmuş tələbənin şəxsi işi bərpa edilir. Bu şəxsi işə bərpa olunma haqqında əmrdən çıxarış, ölkə daxilində digər orta ixtisas təhsili müəssisəsindən xaric edilmiş tələbələrin şəxsi işinə isə "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsinə uyğun olaraq müvafiq arayış və xaric olunma haqqında əmrdən çıxarış əlavə edilir.

09_27 IYUl-QARA.qxd 3/7/2024 10:50 PM Page 14



# Vətən sevgisindən doğan qəhrəmanlıq

***Azərbaycanın Milli Qəhrəmanı Elşad Saday oğlu Əhədovun ömür yolu cəmi 25 il oldu. Vətən-torpaq uğrunda canını fəda etməklə qəlblərdə özünə əbədi abidə ucaldıb. Ölümsüzlüyə qovuşan igidin 56 yaşının tamamında məzarını ziyarət edən doğulub boya-başa çatan Masallı rayonunun Təzə Alvadı kəndinin camaatı bir daha bunu dedilər. Həmçinin bildirildi ki, Elşadı Vətən, millət sevgisi qəhrəman edib. Cismən aramızdan gedən qəhrəman oğlumuz indi bizim üçün iftixar mənbəyi və qürur yeridir. Qərinələr keçəcək, gələcək nəsillərə də onun şərəfli həyat yolu örnək olacaq.***



Azərbaycan xalqının əzizi, Masallı elinin fəxri Elşad Əhədov doğma Təzə Alvadı kəndində 1982-ci ildə yeddinci sinfi bitirib, bitib-tükənməyən hərbi sevgisi onu C.Naxçıvanski adına Hərbi liseyə aparıb. Burada yaxşı oxuması, təlimlərdə çevikliyi, vətənpərvərliyi ona hörmət qazandırıb. Sonra seçdiyi peşədə daha mükəmməl olmaq üçün Ukraynada Ali Komandirlər Məktəbini bitirib. 1989-cu ildə baş leytenant rütbəsi alıb, təyinatla Volqoqrad vilayətindəki hərbi hissələrdən birinə rota komandiri göndərilib. Vətəndən kənarda nümunəvi xidməti hesabına böyük rəğbət sahibi olan Azərbaycanın mərd oğlu erməni dığalar tərəfindən Qarabağın işğalını dözə bilməyib və doğma Vətənə dönüb. Əvvəlcə Bakının Güzdək qəsəbəsində, sonra isə Lənkəran rayonunda rota komandiri kimi fəaliyyət göstərib.

Vətənə dərin məhəbbəti Elşad Əhədovu döyüş bölgəsinə aparıb. İşğalçı düşməndən qisas almaq məqsədilə polad sinəsini irəli verib. Döyüş yolu Füzuli rayonu ərazisindən başlayan gənc zabit dəfələrlə ağır döyüşlərdə olub, düşmənlə üz-üzə gəlib. Vətən naminə ölümün gözünə dik baxıb, odlu-alovlu səngərlərdən qalib çıxıb. Elşad Əhədov Beyləqanın müdafiəsində də böyük hünər və şücaət göstərək, özünə layiq ad qoyub. Onun minaladığı sahəyə 8 düşmən tankı, onlarla erməni yaraqlısı düşərək məhv edilib.

1993-cü il dekabrın 11-də yağı düşmən qəflətən Ağdaş yüksəkliyinə hücum çəkir. Sayca iki dəfə çox olan erməni quldurların qarşısını almaq üçün Elşad Əhədovun potası döyüşə atılır. Qeyri-bərabər döyüşdə o, ağır yaralanır. Həkimlərin cidd-cəhdinə baxmayaraq, komandirin həyatını xilas etmək mümkün olmur. Vətən sevdalı ürəyi əbədi dayanır.

Qəhrəmanlığı dillərdə dastan olan Elşad həm də özündən sonra xalqına iki övlad əmanət qoyub.

Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 1993-cü il tarixli Fərmanı ilə Elşad Saday oğlu Əhədov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib, 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Təzə Alvadı kəndində dəfn edilib. Kənd orta məktəbi və parkı qəhrəmanın adınadır.

***Zəfər Orucoğlu, AJB üzvü***

# 2023-cü ildə Abşeron rayonunun "Sosial-iqtisadi inkişafı" statistikası belə olub

***Otən illərdə uğurla gerçəkləşdirilən sosial-iqtisadi islahatların nəticəsi olaraq respublikamız dünyanın sürətli inkişaf yolunda irəliləyən, özünəməxsus milli inkişaf modelini yaradan dövlətlərindən biri kimi tanınır.***

Artıq ölkəmizin iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur ki, bu mərhələdə də əsas məqsədlərdən biri uzunmüddətli perspektiv və ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdir. Bunun üçün dövlətin qarşıya qoyduğu regionların sosial-iqtisadi inkişaf siyasəti regional inkişafın, ölkəmizin bu sahədə uğurlu və dinamik tərəqqi yolunun təminatıdır. Dövlət başçısının bu yolda yeritdiyi məqsədyönlü siyasəti nəticəsində ölkənin bütün regionlarında, o cümlədən Abşeron rayonunda da iqtisadiyyatın yüksəlməsi ilə müşahidə olunub. Belə ki, rayonda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən il ərzində 827.1 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Sənayenin inkişafında qeyri-dövlət sektorunun fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Qeyri-dövlət subyektləri tərəfindən hesabat dövrü ərzində 728.4 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da ümumi məhsulun 88,1 faizi qədərdir.

Rayonun sosial-iqtisadi infrastruktur sahələrindən biri olan nəqliyyat sektoru cəmiyyətin inkişafında mühüm rol oynayır. Göstərilən dövr ərzində fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasından əldə olunan gəlir 37.1 milyon manat olmuşdur.

Hesabatların təhlilindən məlum olur ki, rayonun iqtisadi inkişafında rabitə və informasiya sahəsinin də əhəmiyyətli yeri var. Belə ki, hesabat ilində müəssisə və təşkilatlara, həmçinin əhaliyə 26.1 milyon manatlıq və ya 2022-ci illə müqayisədə 13.0 faiz çox rabitə xidməti göstərilmişdir. Əldə olunan gəlirin 43.3 faizi dövlət, 56.7 faizi isə qeyri-dövlət sektorunun payına düşür.

Hesabat ilində 308.5 milyon manatlıq investisiya qoyuluşu olmuşdur ki, bu investisiyanın 292.8 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir.

İl ərzində əhaliyə pərakəndə ticarət və iaşə şəbəkələrindən 1401.4 milyon manata bərabər istehlak malları satılmış və iaşə xidmətləri göstərilmişdir ki, bu da əvvəlki ilə nisbətən 12.5 faiz çoxdur. Əhaliyə göstərilən ödənişli xidmətin dəyəri isə 138.3 milyon manat olmuş, bunun da 51.3 milyon manatı dövlət, 87.0 milyon manatı isə qeyri-dövlət mülkiyyətinə məxsus təşkilatlar tərəfindən əldə edilmişdir.

2023-cü ilin məhsulu üçün ümumilikdə 1532.9 hektar sahədə bitkiçilik məhsulları əkilmişdir. Əvvəlki il ilə müqayisədə əkin sahəsi 325.4 hektar artmışdır. Ümumi əkin sahələrinin 515.0 hektarını taxıl bitkilərinin əkini təşkil edir.

Rayonun kənd təsərrüfatı müəssisələrində, əhali və kəndli fermer təsərrüfatlarında 2024-cü ilin yanvar ayının 1-i vəziyyətinə 20809 baş iribuynuzlu mal qara, o cümlədən 13203 baş inək və camış, 90283 baş isə qoyun və keçi mövcud olmuşdur. Təqdim olunan statistik məlumatlara və müvafiq hesabla-



malara görə diri çəkidə 103605 sentner ət, 544396 sentner süd istehsal edilmişdir.

2023-cü il yanvar-dekabr aylarında rayonda iqtisadiyyatın bütün sahələrini əhatə etməklə faktiki işləyən işçilərin sayı 41260 nəfər olmuş, bundan 13603 nəfəri dövlət, 27657 nəfəri isə qeyri-dövlət sektorunu əhatə etmişdir. Hesablanmış əməkhaqqı fondu 353540.1 min manat olmuşdur. Rayon üzrə bir işçiyə düşən orta aylıq nominal əməkhaqqı 714.1 manat təşkil etmişdir. Ötən il ilə müqayisədə işçilərin sayı 7.2 faiz, orta aylıq nominal əməkhaqqı isə 11.9 faiz artmışdır. Rayonda sosial sahənin inkişafı da yüksək səviyyədə təmin olunur, quruculuq-abadlıq işləri davam etdirilir.

***Abşeron Rayon Statistika İdarəsinin rəisi***
***Təvəkkül Mirzəyev***

# "SİMA İmza" ilə insan resursları üzrə əməliyyatlar rəqəmsallaşıb

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki "AzInTelecom" MMC tərəfindən yaradılmış SİMA yeni nəsil rəqəmsal imza tərəfdaş çevrəsini genişləndirməyə davam edir. "SİMA İmza" vasitəsilə xidmətlərini rəqəmsallaşdıran növbəti qurum "Datalab" MMC şirkəti olub.***

"Unikal" xəbər verir ki, artıq "Datalab" MMC tərəfindən yaradılmış insan resurslarının idarə edilməsi üzrə "DataHRM" proqram təminatında (www.datahrm.com) müxtəlif sənədlərin SİMA yeni nəsil rəqəmsal imza ilə imzalanması mümkündür. Şirkət proqram təminatında müraciətləri, əmrləri, qərarları və digər müxtəlif tipli sənədləri elektron imza vasitəsilə imzalamaqla əməliyyatların icrasını optimallaşdırıb. İmzalamanın kağız formadan rəqəmsal formaya keçidi prosesini təhlükəsiz və rahat formada təşkil etmək üçün şərait yaradıb.

Qeyd edək ki, "DataHRM" proqram təminatı hazırda 30-dan çox müəssisədə aktiv şəkildə istifadə edilir.

"SİMA İmza" ilə vətəndaşların xidmət mərkəzlərindən asılılığına son qoyulur, xidmət göstərənlərin iş yükü və xərcləri azalır. Azərbaycan vətəndaşları, fərdi sahibkarlar və Azərbaycanda qanuni əsaslarla yaşayan əcnəbilər olduğu yerdən elektron xidmətlərdən yararlanırlar.

Həmçinin "SİMA İmza"nın istənilən sistemə inteqrasiya oluna bilməsi istifadəçilərə sürətli və istənilən sayda imzalama imkanı qazandırır. Rəqəmsal xidmətlərə əlçatanlığı artıran "SİMA İmza" ölkəmizdə biznes proseslərini sürətləndirəcək.

Mobil tətbiqi yükləməklə əldə olunan "SİMA İmza" vətəndaşlar üçün tam pulsuzdur. SİMA yeni nəsil rəqəmsal imza ilə bağlı daha ətraflı məlumatı www.sima.az saytından və "157" Zəng Mərkəzi ilə əlaqə saxlayaraq əldə edə bilərsiniz.

# Ağsuda heyvandarlıq məhsullarının istehsalı artıb

***Ağsu rayonunda cari ilin mart ayının 1-i vəziyyətinə heyvandarlıq məhsulları sahəsində artım müşahidə olunub.***

Belə ki, ət istehsalı ( diri çəkidə) 858 ton, süd istehsalı (fiziki çəkidə) 5068 ton, yumurta istehsalı isə 2762 min ədəd olmuşdur ki, bu da ötən ilin müvafiq dövründəkindən ət 2 ton və ya 0.2 %, süd 163 ton və ya 103.3 % , yumurta 54 min ədəd və 102.0 % çox olmuşdur.Bu irəliləyişdə kənd təsərrüfatı müəssisələrinin də xüsusi payı vardır.

# Bu il Ağdaşda arpanın səpin sahəsi artıb

***Rayonda 2024-cü ilin məhsulu üçün payızlıq bitkilərin kütləvi səpini başa çatmışdır və cari il yanvar ayının 1-i vəziyyətinə 16064,0 hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər səpilmişdir. Səpin aparılmış sahənin 99,7 faizini və yaxud 16009,0 hektarını dən üçün payızlıq bitkilər təşkil etmişdir ki, onun da 3945,0 hektarı buğda, 12064,0 hektarı arpa əkinlərinin payına düşür.***

Ən çox payızlıq bitkilər rayonun Yuxarı Nemətabad, Ərəbocağı, Prkəkə, Kotavan və Qaradağlı kəndlərində səpilmişdir.

Ötən ilin eyni dövrü ilə müqayisədə dən üçün payızlıq bitkilərin səpin sahəsi 0,6 faiz, o cümlədən buğdanın səpin sahəsi 5,8 faiz azalmış, arpanın səpin sahəsi 1,2 faiz artıb.

09_27 IYUl-QARA.qxd 3/7/2024 10:51 PM Page 15



## Aİ Ermənistanla birgə hərbi təlimlər keçirməyəcək

***Ermənistanla birgə hərbi təlimlər keçirmək planı yoxdur.***

"Unikal" xəbər verir ki, bu barədə Aİ nümayəndəsi Piter Stano açıqlayıb.

Onun sözlərinə görə, Aİ hərbi ittifaq deyil, siyasi və iqtisadi dəyərlərə əsaslanan strukturdur: "Avropa İttifaqı üzv dövlətlərin ərazisində erməni hərbçilərinə təlim keçməyi planlaşdırmır".

Ermənistan ordusuna silahsız dəstək verilməsinin mümkünlüyündən danışan Stano bununla bağlı hələlik konkret qərarın verilmədiyini bildirib.

*Ağarza Elçinoğlu*

## Abbas İrvani həbs edildi

***İranda tanınmış dövlət xadimi Abbas İrvani həbs edilib.***

"Unikal" İran mətbuatına istinadən xəbər verir ki, o, iqtisadi cinayətkar kimi İnformasiya Nazirliyi tərəfindən tutulub.

Qeyd olunub ki, Abbas İrvani fevral ayında ədliyyə orqanına təslim olmalı idi, lakin gizlənərək hakimiyyəti hədələyib.

## Tramp Baydeni debata dəvət etdi

***ABŞ-nin keçmiş prezidenti Donald Tramp hazırkı lider Co Baydeni debata dəvət edib.***

"Unikal" xəbər verir ki, bu barədə siyasətçi "Trurh" sosial səhifəsində yazıb. "Co Bayden və mənim Amerika və Amerika xalqı üçün çox vacib olan məsələləri müzakirə etməyimiz ölkəmizin rifahı üçün vacibdir. Ona görə də müzakirə tələb edirəm. İstənilən vaxt, istənilən yerdə", - Tramp qeyd edib.

Qeyd edək ki, ABŞ-də prezident seçkiləri noyabrda keçiriləcək.

*Ağarza*

## Meksikada hərbi helikopter qəzaya uğradı

***Meksika Hərbi Dəniz Qüvvələrinə məxsus helikopter Meksika körfəzində qəzaya uğrayıb.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, hadisə nəticəsində 3 nəfər ölüb, 2 nəfər itkin düşüb. "Hava gəmisində olan səkkiz nəfərdən üçü xilas edilərək xəstəxanaya yerləşdirilib", - məlumatda deyilir.

İtkin düşənlərin axtarışı davam edir.

## Seneqal prezidenti hökuməti buraxdı

***Seneqal prezidenti Macky Sall ölkə hökumətini buraxıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, daxili işlər naziri vəzifəsini icra edən Siddiqi Kaba yeni baş nazir təyin edilib. "Hökumət başçısı prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası aparmalı olduğu üçün tutduğu vəzifədən azad edilib", - məlumatda deyilir.

Keçmiş baş nazir Amadu Ba artıq hakim partiyadan namizəddir.

# "Ermənistan 102-ci bazanın çıxması məsələsini də qaldıracaq" - Zatulin

***Ermənistan hökuməti Rusiya ilə münasibətləri açıq-aşkar şəkildə kəsir.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitəsi sədrinin birinci müavini Konstantin Zatulin bildirib.



"Ermənistan hökuməti Rusiya ilə əlaqələri nümayişkaranə şəkildə kəsir, səbəb axtarır, bir addım digərinin ardınca gedir, bu, onların siyasətinə uyğundur. Düşünürəm ki, məsələ "Zvartnots"la məhdudlaşmayacaq. İndi nə deyirlərsə desinlər, yavaş-yavaş bizim xəbərdarlıq etdiyimizi, yəni KTMT-dən çıxmağı həyata keçirirlər, sonra da Gümrüdən 102-ci bazanın çıxması məsələsini qaldıracaqlar", - rusiyalı deputat vurğulayıb.

Xatırladaq ki, dünən Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bildirib ki, İrəvan Moskvaya rəsmi məktubla "Zvartnots" beynəlxalq hava limanında Rusiya sərhədçiləri olmadan müstəqil şəkildə sərhəd nəzarəti həyata keçirmək niyyəti barədə məlumat verib.

*Ağarza Elçinoğlu*

# Türkiyə İraqda böyük hərbi əməliyyat keçirməyə hazırlaşır

***Türkiyə Iraqın şimalında PKK yaraqlılarına qarşı iri quru hərbi əməliyyat keçirməyə hazırlaşır.***

"Unikal" xəbər verir ki, bu barədə "Hürriyet" qəzeti məlumat yayıb. Məlumata görə, Türkiyə əməliyyatdan əvvəl İraqın mərkəzi administrasiyası ilə razılığa gəlib.

Qeyd olunur ki, Ankara İraqla sərhədin bütün 378 kilometrini bağlamağı planlaşdırır.

Bundan əvvəl, dekabrın 24-də Türkiyə ordusu Şimali Iraq və Suriyada ən azı 25 PKK yaraqlısını məhv edi. Türkiyənin müdafiə naziri Yaşar Gülər 2023-cü ilin əvvəlindən ümumilikdə 2156 PKK yaraqlısının öldürüldüyünü bildirib. Onun sözlərinə görə, PKK xeyli itki verib və faktiki olaraq manevr imkanlarından məhrum olub. Gülər söz verib ki, PKK-ya qarşı əməliyyatlar "bu bölgədəki son terrorçu" məhv edilənə qədər davam edəcək.

*Gülayə Mecid*



# "Regiondan kənarda təhlükəsizlik axtarışları əks nəticə verir" - İranlı nazir

***Cənubi Qafqaz regiondan kənar ölkələrdən təhlükəsizlik axtararkən başqaları üçün rəqabət meydanına çevrilə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə İranın müdafiə naziri Məhəmməd Rza Aştiani deyib.

O, Tehranda Ermənistanın müdafiə naziri Suren Papikyanla görüşündə deyib: "Regiondan kənarda təhlükəsizlik axtarışları əks nəticə verir, regionu güclərin toqquşma yerinə çevirərək regional sülh və sabitlik üçün yeni problemlər yaradır".



Aştiani İrəvanla Bakı arasında birbaşa danışıqları dəstəkləyib və Cənubi Qafqaz ölkələrinin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişməzliyinin vacibliyini vurğulayıb.

# Hindistan Pakistanla sərhəddə hərbi təlimlərə başlayır

***Hindistan Silahlı Qüvvələri martın 12-də quru qoşunları, hava qüvvələri və donanmanın iştirakı ilə irimiqyaslı kompleks hərbi təlim keçirəcək.***

"Unikal" xəbər verir ki, bu barədə "The Times of India" qəzeti yazır.

Təlimlərin Hindistanın istehsal etdiyi silahların sınaqdan keçirilməsi məqsədi daşıdığı bildirilir. Təlimdə Hindistan şirkətləri tərəfindən istehsal olunan 60-a yaxın silah sisteminin, o cümlədən "BrahMos" səsdən sürətli qanadlı raketləri, "Akash" zenit-raket kompleksləri, "Svati" artilleriya kəşfiyyat stansiyaları, "Vajra" özüyeriyən haubitsaları, "Pinaka" reaktiv yaylım atəşi sistemləri və digər raket sistemləri nümayiş etdiriləcək.

Hindistanın baş naziri Narendra Modi və müdafiə naziri Rajnath Singh Pakistanla həmsərhəd olan Racastan əyalətinin qərbində "Bharat Shakti" quru və hava təlimini müşahidə edəcək.

*Ağarza Elçinoğlu*



# "Rusiya birbaşa Tanrı tərəfindən idarə olunur" - Putin

***Mədəniyyətlərin, dinlərin və adət-ənənələrin müxtəlifliyi Rusiyanı digər ölkələrdən fərqləndirir.***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidenti Vladimir Putin Ümumdünya Gənclər Festivalında deyib. Onun sözlərinə görə, bütün bu fərqlər ölkə sakinlərinə əsrlər boyu bir-biri ilə həm genetik kod, həm də mədəni kod mübadiləsi aparmağa imkan verir. Putin çıxışı zamanı bildirib ki, Rusiya birbaşa Tanrı tərəfindən idarə olunan, lakin burada yaşayan xalqların sayəsində mövcud olan ölkədir. Bundan əvvəl Rusiya Federasiyasının prezidenti rus və ukrayna xalqlarının taleyindən danışıb.

*Gülayə Mecid*

09_27 IYUI-QARA.qxd 3/7/2024 11:49 PM Page 16



# "Qarabağ" "Bayer04"lə matçda heç-heçə etdi

***"Qarabağ" UEFA Avropa Liqasında Almaniyanın "Bayer 04" klubu ilə qarşılaşıb.***

"Unikal" xəbər verir ki, 1/8 final mərhələsinin ilk oyununda ağdamlılar qələbə qazanıb.

Azərbaycan futbolu adına tarixi matçın ilk hissəsi "Qarabağ"ın 2:0 hesablı qələbəsi ilə yekunlaşıb.



Ikinci hissədə üstünlüyü qorumağa çalışan "köhlən atlar" 70-ci dəqiqədəki səhvlə qapısında qol görüb.

Qarşılıqlı hücumlar şəraitində keçən matçda almanlar təşəbbüsü ələ alıb və əsas vaxta əlavə olunmuş dəqiqələrdə hesabı bərabərləşdirib.

Bununla da Almaniya təmsilçisi 34 oyunluq məğlubiyyətsizlik seriyasının qırılmasına son anda imkan verməyib.

# Konfrans Liqasında 1/8 final başladı

***Konfrans Liqasında 1/8 final mərhələsinin 1/8 final mərhələsinin ilk oyunları keçirilib.***

QOL.az xəbər verir ki, bütün matçlar eyni gündə olacaq. Azərbaycan millisinin hücumçusu Mahir Emreli-nin də çıxış etdiyi Xorvatiyanın "Dinamo" Yunanıstanın PAOK-unu qəbul edəcək. Görüşün baş hakimi azərbaycanlı FİFA referisi Əliyar Ağayev olacaq.

Qeyd edək ki, cavab qarşılaşmaları martın 14-də gerçəkləşəcək.

Konfrans Liqası, 1/8 final mərhələsi, ilk oyunlar

7 mart

21.45. "Ayaks" (Niderland) - "Aston Villa" (İngiltərə)

21.45. "Molde" (Norveç) - "Brügge" (Belçika)

21.45. "Olimpiakos" (Yunanıstan) - "Makkabi" (Təl-Əviv, İsrail)

21.45. "Şturm" (Avstriya) - "Lill" (Fransa)

00.00. "Dinamo" (Zaqreb, Xorvatiya) - PAOK (Yunanıstan)

00.00. "Makkabi" (Hayfa, İsrail) - "Fiorentina" (İtaliya)



00.00. "Yunion" (Belçika) - "Fənərbaxça" (Türkiyə)

00.0. "Servett" (İsveçrə) - "Viktoriya" (Çexiya)

# Qvardiola: "Deyəcəklər ki, çox pul veririk, sus!"

***"Mançester Siti"nin baş məşqçisi Pep Qvardiola komandasının bu mövsümki oyun cədvəlindən şikayətlənib.***

QOL.az goal.com-a istindən xəbər verir ki, ispaniyalı futbolçu Çempionlar Liqasının 1/8 final mərhələsinin "Kopenhagen"lə cavab oyununda (3:1) heyətində ciddi rotasiya etməsinin səbəbləri barədə danışarkən deyib:

"Premyer Liqa təmsilçiləri ilə oyunların mümkün təxirə salınmasından danışmalıyıq? Deyəcəklər ki, çox pul veririk, sus!



Çempionlar Liqasında "Kopenhagen"lə oyununda mənə "təzə ayaqlar" lazım idi. Futbolçularımın necə yorğun olduğunu görürəm. Bəzi ölkələrdə çərşənbə günü avrokuboklarda oynadığınız zaman ölkə çempionatında şənbə günü oynamağa icazə verilir. Biz isə bazar günü "Mançester Yunayted"lə qarşılaşdıq. Mənə "təzə ayaqlar" və belə çətin matça tab gətirə bilən insanlar lazım idi".

Qeyd edək ki, ötən gecə "Mançester Siti" "Kopenhagen"i üstələyərək 1/4 finala adlayıb.



# "Real" bu nominasiyada ikinci klub oldu

***İspaniyanın "Real Madrid" klubu Çempionlar Liqasında dörddəbir finala ən çox yüksələn ikinci komanda olub.***

"Unikal" xəbər verir ki, Madrid təmsilçisi buna ötən gün səkkizdəbir final mərhələsinin cavab oyununda Almaniya "Leypsiq"i ilə 1:1 hesablı heç-heçə edərək növbəti mərhələyə çıxmaqla nail olub.

Bununla da "Kral klubu" Çempionlar Liqası tarixində 20-ci dəfə dörddəbir finala vəsiqəni təmin edib. Bu göstəriciyə görə madridliləri yalnız Almaniya "Bavariya"sı (22) qabaqlayır. Üçüncü yeri isə İspaniyanın digər təmsilçisi "Barselona" (18) tutur.

# ÇL-də həftənin ən yaxşı futbolçusu adına namizədlər

***UEFA Çempionlar Liqasında bu həftənin ən yaxşı oyunçusu adına namizədlərin siyahısını açıqlayıb.***

Namizədlər sırasında Kilian Mbappe (PSJ), Villi Orban ("Leyptsiq"), Harri Keyn ("Bavariya") və Manuel Akanji ("Mançester Siti") yer alıb.

Həftənin ən yaxşı oyunçusu UEFA-nın rəsmi saytında səsvermə yolu ilə müəyyən ediləcək.

Qeyd edək ki, ÇL-də 1/8 finalın digər oyunları gələn həftə keçiriləcək.






# Suares 12 milyon dollara ev aldı

***"İnter Mayami"nin hücumçusu Luis Suares 12 milyon dollara ev alıb.***

QOL.az "Real Deal"a istinadən xəbər verir ki, uruqvaylı futbolçu ailəsi ilə birlikdə Florida ştatının Fort Lauderdeyl bölgələrindən birində komanda yoldaşı Lionel Messinin yanında məskunlaşıb.

Suares və həyat yoldaşı Sofiya Balbinin yeni evinin sahəsi təxminən 660 kvadratmetrdir.

Suares 2014-2020-ci illərdə Messi ilə birlikdə "Barselona"da çıxış edib və hər ikisi hazırda MLS-də oynayır.

Messi ötən ilin sentyabrında Floridada özünə 10,8 milyona ev alıb.

# Salah məşqlərə başladı

***"Liverpul" futbolçusu Məhəmməd Salah komanda ilə məşqlərə başlayıb.***



"Unikal" xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Misirli hücumçu İngiltərə Premyer Liqasının 28-ci turunda martın 10-u keçiriləcək "Mançester Siti" ilə matçda oynaya bilər.

Qeyd edək ki, M.Salah Afrika Millətlər Kubokunda Qana millisi ilə oyunda zədələnib. O, bu səbəbdən "Liverpul"un son 4 görüşünü buraxıb.

# "Mançester Siti" və "Real Madrid" 1/4 finalda

***"Mançester Siti" və "Real Madrid" UEFA Çempionlar Liqasının 1/4 finalına vəsiqə qazanıb.***

"Unikal" xəbər verir ki, futbol üzrə Çempionlar Liqasının 1/8 final mərhələsinin cavab oyununda İspaniyanın "Real Madrid" klubu Almaniyanın "Leypsiq" klubu ilə 1:1 hesablı heç-heçə edib və turnirin 1/4 finalına yüksəlib.

Çempionlar Liqasının hazırkı qalibi İngiltərənin "Mançester Siti" klubu evdə Danimarka "Kopenhagen"inə 3:1 hesabı ilə qalib gəlib.

Bundan əvvəl Almaniyanın "Bavariya" və Fransanın "Paris Sen-Jermen" klubları Çempionlar Liqasının 1/4 finalına yüksəlib.

1/8 finalın qalan dörd cütlüyünün cavab oyunları martın 12-13-də keçiriləcək.